## Sülhməramlılara aid yeddi avtomobil Laçın yolundan maneəsiz keçib



**Laçın-Xankəndi yolundan Rusiya sülhməramlı kontingentinə (RSK) məxsus avtomobillərin maneəsiz keçidinə şərait yaradılıb.**

Trend-in Şuşaya ezam olunan müxbiri xəbər verir ki, Rusiya sülhməramlılarına məxsus 1 minik, 6 yük avtomobili Xankəndidən Laçın istiqamətinə keçib.

Bu, bir daha onu göstərir ki, aksiyanın təşkil olunduğu ərazidə humanitar məqsədli maşınların hərəkəti sərbəstdir və buna heç bir maneə yoxdur.

Qeyd edək ki, Qarabağda "Qızılbulaq" və "Dəmirli" faydalı qazıntı yataqlarının qanunsuz istismarı nəticəsində ətraf mühitə vurulmuş ziyanın monitorinqinin aparılmasına icazə verilməsini tələb edən azərbaycanlı ekoloqların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və fəallarının ötən il dekabr ayının 12-dən Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası 116 gündür davam edir.

## Sergey Lavrov Türkiyədə işgüzar səfərdədir

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov Türkiyəyə işgüzar səfərə gəlib.**

Aprelin 6-7-də onun türk həmkarı Mövlud Çavuşoğlu ilə birlikdə Ankarada energetika, taxıl müqaviləsi məsələləri, Qarabağda, Ukraynada vəziyyət, Türkiyə-Suriya dialoqu və digər mövzular ətrafında müzakirələrdə iştirak edəcəyi gözlənilir.


❐ № 59 (5820) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 aprel 2023-cü il (cümə)




# Bakıda orta məktəbdə kütləvi zəhərlənmə olub

### 6 nəfərdən birinin vəziyyəti ağır qiymətləndirilir

**Bakıda orta məktəbdə kütləvi zəhərlənmə qeydə alınıb. Məlumata görə, hadisə Parlament prospekti 7/11 ünvanında yerləşən A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseyində baş verib. Zəhərlənənlərin ibtidai sinif şagirdləri olduqları bildirilib.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədovun sözlərinə görə, məktəbdə 10-a yaxın şagird quş əti tərkibli qida qəbul edib: "Onlar mədə ağrısı şikayətləri ilə müraciət ediblər.

Təcili tibbi yardım briqadası çağırılıb və zərurət olan şagirdlər müayinə üçün xəstəxanaya aparılıblar. Onların vəziyyəti kafi, normal olaraq qiymətləndirilir.

(səh.6)



## Fazil Mustafanın xəstəxanadan ilk fotosu

### Mirşahin Ağayev deputatdan müsahibə alıb

**Evinin qarşısında silahlı hücuma məruz qalan deputat Fazil Mustafanın müalicə aldığı xəstəxanadan fotosu yayılıb.**

Foto Real TV-nin rəhbəri Mirşahin Ağayevlə deputatın müsahibəsi zamanı lentə alınıb.

Xatırladaq ki, martın 28-də saat 21:51-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında - Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Babək küçəsi ev 2 "Z" ünvanında "Kalaşnikov" konstruksiyalı avtomat silahından atəş açılaraq terror aktı törədilib. Terror aktı nəticəsində Fazil Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb.

(səh.3)

# İranın 4 diplomatı Bakıdan qovuldu

### Ölkəni tərk etmək üçün onlara 48 saat vaxt verilib



**6 aprel 2023-cü il tarixində İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. İran səfirinə son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib.**

Səfirliyin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan edildiyi İran səfirinin diqqətinə çatdırılıb. Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib.

Millət vəkili, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı "Şərq"ə bildirib ki, İran Azərbaycana qarşı yürütdüyü düşmənçilik siyasəti ilə bütün qırmızı xətləri keçib. Deputat vurğulayıb ki, İranın "parlament" adlanan qurumu Azərbaycana "tapşırıq" verir ki, İsraildəki səfirliyinizi bağlayın:

(səh.3)

## İmza atılıb

### Azərbaycan Avropa Şurasının daha bir mühüm müqaviləsinə qoşulub



**Azərbaycan "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasına qoşulub.**

"Şərq" xəbər verir ki, "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasının müvafiq sorğuların elektron qaydada göndərilməsini, dindirmələrin videokonfrans vasitəsilə aparılmasını, Konvensiyanın əhatə dairəsinin genişləndirilməsi və s. məsələləri özündə ehtiva edən İkinci Əlavə Protokolunun cinayətkarlıqla mübarizədə səmərəliliyin və operativliyin artırılmasında əhəmiyyəti nəzərə alınaraq Azərbaycan tərəfindən həmin sənədə qoşulması qərara alınıb.

(səh.2)

# Zorakılığı təbliğ edən mahnılar qadağan olunmalıdır

### Monitorinqin nəticələri şokedici, dəhşətli, sarsıdıcı, hətta faciəvidir



**Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi Azərbaycanda mahnıların monitorinqini aparıb.**

Monitorinqin nəticələri dünən keçirilən mətbuat konfransında açıqlanıb. Nəticələr şokedici, dəhşətli, sarsıdıcı, hətta faciəvidir. Mərkəz 350-yə yaxın mahnını monitorinqə cəlb edib, nəticədə 177 mahnıda 1253 norma pozuntusu müəyyənləşdirilib.

Mahnıların monitorinqi zamanı 668 orfoepik, 111 leksik, 144 qrammatik, 330 üslub və ifadə səhvi aşkarlanıb.

(səh.5)




## Bu il Azərbaycanda inflyasiya birrəqəmli olacaq

**Dünya Bankı (DB) 2023-2025-ci illər üzrə Azərbaycanın inflyasiya proqnozunu yeniləyib.**

"APA-Economics" xəbər verir ki, bu barədə Dünya Bankının hesabatında bildirilib. DB Azərbaycanda inflyasiyanın 2022-ci ildəki 13,5%-dən 2023-cü ildə 8,5%-ə qədər azalacağını proqnozlaşdırıb. Bu isə Azərbaycan Mərkəzi Bankının gözləntilərinə yaxındır.

Belə ki, AMB-nin bu il üzrə inflyasiya proqnozu 8%-dir. Dünya Bankı həmçinin, 2024 və 2025-ci illərdə də Azərbaycanda inflyasiyanın azalacağını proqnozlaşdırıb. 2024-cü ildə bu rəqəm 6,2%, 2025-ci ildə isə 5,4% təşkil edəcək.

## 3 nəfər vəfat edib

### 79 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 79 yeni yoluxma faktı qeydə alınıb, 69 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 830 135 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 819 472 nəfər müalicə olunaraq sağalıb, 10 196 nəfər vəfat edib, aktiv xəstə sayı 467 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 266, hazırkı dövrədək isə 7 567 697 test aparılıb.*



## AKP iqtidarı vədlərini yerinə yetirəcək

### Seçkilərədək Ərdoğan bənzər qərarlarla "Cümhur İttifaqı"nın səs faizini, seçkidə yenidən qalib olmaq şansını artıra bilər

(səh.3)



## "118 din xadimi işindən uzaqlaşdırılıb"

### Mübariz Qurbanlı: "Məşədi Dadaş məscidinə din xadimi təyinatı Hacı Şahinin 40 mərasimindən sonra olacaq"

(səh.2)

## Sabirabadda 59 yaşlı kişi qonşunun həyətində intihar edib



**Sabirabadda 59 yaşlı kişi qonşunun həyətində intihar edib.**

"Report"un Aran bürosunun məlumatına görə, hadisə şəhərin Şəhriyar küçəsində qeydə alınıb.

Belə ki, həmin ünvanda yaşayan 1964-cü il təvəllüdlü Kərimov Habil Paşa oğlu özünü asıb. İntiharın səbəbi hələ ki, məlum deyil.

*Faktla bağlı araşdırma aparılır.*

# Bakı region ölkələri arasında fərq qoymur

## Dövlət başçısının Tacikistana səfəri Mərkəzi Asiya siyasətini tamamlayır



**Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən türk dövlətləri ilə münasibətlərində canlanma müşahidə olunur. Son illər dünyada baş verən proseslər ölkələrdən birgə əməkdaşlıq, birlikdə hərəkət etməyi və ümumi səylər göstərməyi tələb edir. Bu gün Azərbaycanın xarici siyasətində bunun şahidi oluruq.**

Prezident İlham Əliyevin son bir-iki il ərzində Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin gələcək konturlarını müəyyənləşdirir. Bu baxımdan Azərbaycanın Mərkəzi Asiya dövlətləri arasında Tacikistanla münasibətləri, xüsusən dövlət başçısı İlham Əliyevin Tacikistana səfəri və həmkarı Emoməli Rəhmanla görüşü, iki ölkə arasında mühüm sənədlərin imzalanması xüsusi əhəmiyyətə malikdir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il mayın 29-da qurulub. 2007-ci ildə Azərbaycanın Tacikistanda, bir il sonra isə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. Ekspertlərin fikrincə, səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Bu səfər Azərbaycan Prezidentinin Tacikistana beşinci səferidir. Ölkələrimizi tarixi dostluq əlaqələri, siyasi, humanitar və digər sahələrdə münasibətlər də birləşdirir. Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir. Ötən il Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında Memorandum imzalanıb. Bundan başqa, Xocənd və Gəncə qardaşlaşmış şəhərlərdir. İki ölkə arasında elm və təhsil sahəsində münasibətlər də mühüm yer tutur. Ölkələrimiz arasında qarşılıqlı mədəniyyət günləri və kino həftəsi keçirilib. Hər iki ölkə beynəlxalq və regional təşkilatlar, xüsusilə İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində sıx əməkdaşlıq edir. Tacikistandan Azərbaycana 4,4 milyon dollar, Azərbaycandan Tacikistana isə 1,5 milyon dollar investisiya qoyulub. Bütün bunlar göstərir ki, iki ölkə arasında münasibətlərin inkişafı yaxşı perspektiv vəd edir və bunun üçün böyük potensial mövcuddur.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında bildirib ki, son dönəmlər Azərbaycanın Orta Asiya ölkələri ilə əlaqəsi sürətlə inkişaf edib. Analitik qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən iki il ərzində demək olar ki, bütün Mərkəzi Asiya ölkələrində səfərdə olub:** "Bir çox Orta Asiya ölkələrinin rəhbərləri də Azərbaycana səfər ediblər. Bu səfərlər çərçivəsində mühüm sənədlər imzalanıb, önəmli məsələlər ətrafında müzakirələr, danışıqlar aparılıb. Mərkəzi Asiya ölkələrinin əksəriyyəti türkdilli ölkələrdir. Amma Orta Asiya məkanı region olaraq bizim üçün önəm kəsb edir. O baxımdan Tacikistan kimi bir ölkəni kənarda saxlamaq olmaz. Dövlət başçısının Tacikistana səfəri sanki Mərkəzi Asiya siyasətini tamamlayır. Tacikistanla imzalanan sənədlər də göstərir ki, rəsmi Bakı region ölkələri arasında fərq qoymur, ayrı-seçkilik etmir. Tacikistan da bizim üçün dost ölkədir. Dəfələrlə müxtəlif beynəlxalq qurumlarda Azərbaycanın mövqeyini dəstəkləyib. Burada təhlükəsizliklə bağlı məsələlər də önəmlidir. Nəzərə alaq ki, Azərbaycan və Tacikistan çox həssas bölgələrdə yerləşirlər. Hər iki ölkəyə təhdidlər var. İki ölkənin fikir mübadiləsi, təcrübələri bölüşməsi də çox vacibdir. Xatırladım ki, vaxtı ilə Tacikistan da İranın müdaxiləsi ilə üz-üzə qalmışdı. Tehran Tacikistanın daxili işlərinə müdaxilə etmişdi. Bu məsələdə də müəyyən dərəcədə maraqlarımız üst-üstə düşür. İdeoloji və mədəni baxımdan da ortaq nöqtələrimiz var. Novruz bayramı hər iki xalqın sevimli bayramı kimi qeyd olunur. Nizami Gəncəvi fars dilində yazdığı üçün Tacikistan üçün də doğma şair və filosofdur. Ancaq İran kimi "bizim şairimizdir" demirlər. Nizaminin Azərbaycan şairi olduğunu qəbul edirlər".

**İsmayıl Qocayev**



# İmza atılıb

## Azərbaycan Avropa Şurasının daha bir mühüm müqaviləsinə qoşulub

**Azərbaycan "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasına qoşulub.**

"Şərq" xəbər verir ki, "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasının müvafiq sorğuların elektron qaydada göndərilməsini, dindirmələrin videokonfrans vasitəsilə aparılmasını, Konvensiyanın əhatə dairəsinin genişləndirilməsini və s. məsələləri özündə ehtiva edən İkinci Əlavə Protokolunun cinayətkarlıqla mübarizədə səmərəliliyin və operativliyin artırılmasında əhəmiyyəti nəzərə alınaraq Azərbaycan tərəfindən həmin sənədə qoşulması qərara alınıb.

Bununla əlaqədar dövlətimiz adından bu sənədi imzalamaq üçün ölkə başçısı tərəfindən verilmiş səlahiyyətə əsasən Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun Strasburqa səfəri çərçivəsində Avropa Şurası Baş katibinin müavini Byorn Berqenin və digər məsul şəxslərin iştirakı ilə həmin Protokolun imzalanması mərasimi keçirilib.

Sonra keçirilmiş görüşdə ədliyyə naziri tərəfindən Avropa Şurası ilə əməkdaşlıqda ölkəmiz üçün 2022-2025-ci illər üzrə qəbul edilmiş Fəaliyyət Planının implementasiyası çərçivəsində Avropa məhkəməsi qərarlarının icrası ilə bağlı layihənin həyata keçirildiyi vurğulanıb, ədliyyə, o cümlədən penitensiar, habelə məhkəmə sistemində aparılan və beynəlxalq aləmdə təqdir olunan islahatlar və yeniliklər barədə verilmiş məlumat maraqla qarşılanıb.

Baş katibin müavini B.Berqe Avropa Şurasının ölkəmizlə əməkdaşlığının yüksək səviyyəsini qeyd edərək may ayında Avropa Şurası tərəfindən üzv dövlətlərin başçılarının Sammitinin keçiriləcəyini bildirib.

Söhbət zamanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Böyük Qələbəmizlə azad edilmiş torpaqlarımızın Ermənistan tərəfindən büsbütün minalanmasına toxunularaq mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşının həlak olduğu və ya yaralandığı bildirilib, bununla bağlı ANAMA tərəfindən hazırlanmış xüsusi kitab təqdim edilib.

Səfər çərçivəsində Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri xanım Siofra O'Liri ilə ikitərəfli görüş keçirilib.

Azərbaycan və Avropa Məhkəməsi arasında səmərəli əməkdaşlığın qeyd olunduğu görüşdə ölkəmizdə həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatları barədə ətraflı məlumat verilib. Həmçinin, ədalət mühakiməsinin həyata keçirilməsində beynəlxalq normaların, o cümlədən Məhkəmənin presedent hüququnun tətbiqinə xüsusi önəm verildiyi bildirilib, bu məqsədlə bir çox milli təlimçilərin hazırlanması, hakimlərin, hakimliyə namizədlərin və digər hüquqşünasların tədrisində beynəlxalq ekspertlərin, o cümlədən Avropa Məhkəməsi hakimlərinin iştirakı, həmin Məhkəməyə tədris səfərlərinin faydası qeyd edilib. Avropa Məhkəməsinə uzun müddət ezam olunan hakimlərimizin beynəlxalq təcrübəyə yiyələnməsinin əhəmiyyəti vurğulanıb.

Eyni zamanda Avropa Məhkəməsinin qarşısında duran çağırışlar, o cümlədən yüksək iş yükü və bu problemin həlli yolları barədə fikir mübadiləsi aparılıb, digər maraq doğuran məsələlər müzakirə olunub.

Tədbirdə Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov və Avropa Məhkəməsinin Azərbaycandan olan hakimi Lətif Hüseynov iştirak ediblər.

# "118 din xadimi işindən uzaqlaşdırılıb"

## Mübariz Qurbanlı: "Məşədi Dadaş məscidinə din xadimi təyinatı Hacı Şahinin 40 mərasimindən sonra olacaq"

**"İran siyasi dairələrinin işlətdiyi "qırmızı xətt" kimi terminlər çox anormal görünür". Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib. Komitə rəhbəri qeyd edib ki, İran tərəfindən Azərbaycana qarşı edilən hərəkətlər Ermənistanla sıx əlaqələrindən irəli gəlir.**

Bildirib ki, eyni zamanda İran Azərbaycanın güclənməsi, 44 günlük Vətən müharibəsində işğala məruz qalmış torpaqlarımızın azad edilməsi və Prezident İlham Əliyevin bölgədə apardığı siyasət, xüsusilə Azərbaycanın dünya miqyasında və bölgədə söz sahibinə çevrilməsi İranı və onun hakim dairələrini qıcıqlandırır: "İran müstəqilliyimiz bərpa olunandan bu yana ölkəmizə qarşı təxribatçı hərəkətlərini davamlı olaraq həyata keçirir. İran siyasi dairələrinin işlətdiyi "qırmızı xətt" kimi terminləri çox anormal görünür. "Qırmızı xətt" dedikləri işğaldan azad olunmuş ərazilərimizdə aparılan işlər, Zəngəzurla bağlı məsələlər və digərləri Ermənistan bizim ərazilərimizi işğal edəndə niyə yada düşmürdü?! İndi Azərbaycan öz ərazisini bərpa edib, burada böyük layihələr həyata keçirəndə "qırmızı xətt" deyərək, buna qarşı çıxır. Paralel olaraq da İran Ermənistana hərtərəfli dəstək göstərir" .

### "İran din adı altında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd edib"

Komitə sədri deyib ki, İran din adı altında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd edib: "İran Azərbaycanda "5-ci kolon" yaratmağa cəhd edir. İranın anti-Azərbaycan əməlləri bumeranq kimi onun özünə qayıdacaq. İran özü bundan çox ciddi ziyan çəkə bilər və ziyan çəkəcək. Həm bizim səfirliyimizə qarşı terror aktı, eyni zamanda millət vəkili Fazil Mustafaya qarşı törədilmiş sui-qəsd, eyni zamanda Azərbaycan hüquq-mühafizə və xüsusi xidmət orqanlarının aşkarladığı qruplar və aparılan ilkin istintaq nəticələri göstərir ki, İran rejimi müxtəlif sahələrdə olan adamları cəlb etməklə Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd edib.



Bunun bir hissəsini isə din adı altında həyata keçirib".

Mübariz Qurbanlı bildirib ki, İran rejimi ölkəmizdəki məscidlərə öz adamlarını yerləşdirməyə çalışıb. Bunun qarşısını almaq üçün Dini Komitə kifayət qədər səbrlə, məqsədyönlü şəkildə iş aparıb. O bildirib ki, məscidlərdə təyinatlar səlahiyyəti Komitəyə keçəndən sonra ölkəmizdə təhsil almış, dövlətimizin maraqlarını ifadə etməyə qadir olan 120-yə yaxın şəxs təyinat alıb. 118 din xadimi isə işindən uzaqlaşdırılıb: "Uzaqlaşdırılanlar içərisində həm işində nöqsanlara yol verənlər, həm də dini təhsili olmayanlar var. İran rejimi dini ideologiya və siyasət adı altında təlqin etməyə çalışır, Azərbaycan və digər ətraf ölkələrə özünün dövlət din modelini yaymaq istəyir. Azərbaycanda da bu təbliğatı aparmaq üçün sosial şəbəkələr üzərindən kampaniyalar aparıb. Bunun qarşısını almaq üçün geniş işlər görülüb və görülməkdədir".

### "Keçmiş Əbu Bəkr məscidi yaxın zamanda fəaliyyətə başlayacaq"

M.Qurbanlı vurğulayıb ki, Nərimanov rayon Cümə məscidi (keçmiş Əbu Bəkr məscidi) yaxın zamanda fəaliyyətə başlayacaq. O bildirib ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən məsciddə aparılan təmir işləri artıq başa çatıb: "Yaxın zamanda açılış olacağı gözlənilir".

Komitə rəhbəri qeyd edib ki, Məşədi Dadaş məscidinə din xadimi təyinatı Hacı Şahinin 40 mərasimindən sonra olacaq. O bildirib ki, Hacı Şahin Həsənlinin vəfatından sonra məsciddə dini ayinləri İlahiyyat İnstitutunun tələbəsi Elmir Vəliyev icra edir: "Biz bunu Məşədi Dadaş məcsidinin icması ilə də müzakirə etmişik. Ənənəvi olaraq 40 mərasimindən sonra məscidə din xadimləri təyin olunacaq. Əminəm ki, Elmir də orada fəaliyyətini davam etdirəcək". Qeyd edək ki, Hacı Şahin martın 2-si səhər saatlarında ürək tutmasından vəfat edib.

### "İran din adı altında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd edib"

M.Qurbanlı vurğulayıb ki, İran din adı altında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd edib: "İran Azərbaycanda "5-ci kolon" yaratmağa cəhd edir. O bildirib ki, İranın anti-Azərbaycan əməlləri bumeranq kimi onun özünə qayıdacaq: "İran özü bundan çox ciddi ziyan çəkə bilər və ziyan çəkəcək. Həm bizim səfirliyimizə qarşı terror aktı, eyni zamanda millət vəkili Fazil Mustafaya qarşı törədilmiş sui-qəsd, eyni zamanda Azərbaycan hüquq-mühafizə və xüsusi xidmət orqanlarının aşkarladığı qruplar və aparılan ilkin istintaq nəticələri göstərir ki, İran rejimi müxtəlif sahələrdə olan adamları cəlb etməklə Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd edib. Bunun bir hissəsini isə din adı altında həyata keçirib".

**İsmayıl**

# Ermənilərin törətdiyi vandalizmi gözləri ilə gördülər

## Böyük Britaniya nümayəndə heyəti Ağdamda səfərdə olub



**Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü və Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində işğaldan azad olunmuş Ağdam şəhərində olublar.**

Bu barədə "Şərq"ə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Nümayəndə heyəti Ağdamda Ermənistanın işğal zamanı Azərbaycan ərazisində törətdiyi vandalizmi öz gözləri ilə görüblər.

Səfər zamanı qonaqlar Ağdam Cümə məscidi və Ağdam Dövlət Dram Teatrının qalıqları ilə tanış olublar.

Nümayəndə heyətinin üzvlərinə Ermənistanın müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etməsi, bu ərazilərə çoxlu sayda mina basdırması barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Ermənistanın işğal etməsinə qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, uçurub və yandırıblar. Erməni vandalları hətta Şəhidlər xiyabanlarını, qəbiristanlıqları da dağıdıblar.

Qonaqlara işğaldan azad olunduqdan sonra burada həyata keçirilən tikinti-quruculuq işləri barədə məlumat verilib, onlara Ağdamın Baş planı göstərilib.

Böyük Britaniya nümayəndə heyətinin üzvləri Ağdamda minatəmizləmə fəaliyyəti ilə məşğul olan ANAMA əməkdaşları ilə də görüşüblər.

Sonra Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü və Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən Ağdamda jurnalistlərə müsahibə verib, burada gördükləri barədə təəssüratlarını bölüşüb.

Ağdam səfəri zamanı Böyük Britaniya nümayəndə heyətini Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

# AZAL-ın aldığı yeni təyyarələr 2028-ci ildən istismara veriləcək



**"Azərbaycan Hava Yolları" QSC (AZAL) "A320neo" və "A321neo" laynerləri daxil olmaqla "A320neo" ailəsinə aid 12 "Airbus" təyyarəsi 2028-ci ildən etibarən istismara veriləcək.**

Bunu AZAL-ın birinci vitse-prezidenti Samir Rzayev jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, 2028-ci ildən etibarən hər il 4 ədəd təyyarə bizim istismara veriləcək.

S. Rzayev vurğulayıb ki, bu gün AZAL-ın tarixində mühüm hadisədir: "Hazırda aldığımız təyyarələr həm yanacaq qənaəti, həm də effektivliyi baxımından çox böyük göstəricilərə naildir. Bu, gələcəkdə AZAL -ın bir şirkət kimi effektliyinin təmin edilməsinə xidmət edəcək. Həmçinin, biz biletlərin qiymətinin cəlbediciliyini, əlçatanlığını əhali üçün təmin edəcəyik. Bu bizim üçün ən vacib addımlardan biridir".

# İranın 4 diplomatı Bakıdan qovuldu

## Ölkəni tərk etmək üçün onlara 48 saat vaxt verilib



### *Ehtiyac olarsa, İranın Azərbaycandakı səfirliyinin fəaliyyətinə də son qoyula bilər*

**6 aprel 2023-cü il tarixində İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. İran səfirinə son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib.**

Səfirliyin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan edildiyi İran səfirinin diqqətinə çatdırılıb. Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib.

**Millət vəkili, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı "Şərq"ə bildirib ki, İran Azərbaycana qarşı yürütdüyü düşmənçilik siyasəti ilə bütün qırmızı xətləri keçib. Deputat vurğulayıb ki, İranın "parlament" adlanan qurumu Azərbaycana "tapşırıq" verir ki, İsraildəki səfirliyinizi bağlayın:** "İran ağlını itirib. Sərsəm sayıqlamalar ortaya qoymaqdadır. İran bizi hədələməkdən çəkinmir, deyir ki, "İsraildəki səfirlik bağlanmasa, bunun siyasi nəticələri olacaq". Nə edəcəksən? Azərbaycana qarşı hədələrlə çıxış etmək nə deməkdir. İranla bütün münasibətlərə yenidən baxmalıyıq. Bu günədək sərgilədiyimiz məsuliyyətli, beynəlxalq hüquq normalarına, mehriban qonşuluq münasibətlərinə söykənən əməkdaşlığımız İran tərəfindən düzgün dəyərləndirilməyib. Ona görə də Azərbaycan dövlətinin İrana qarşı addımları xalqımızın iradəsini ifadə edir. Xarici İşlər Nazirliyinin bu addımını alqışlayırıq, müdafiə edirik. İran səfirliyinin əməkdaşları diplomatik fəaliyyətlə deyil, daha çox casusluq işləri ilə məşğul olublar. Həmin şəxslərin "arzuolunmaz şəxs" elan olunması məntiqlidir. Ehtiyac olarsa, İranın Azərbaycandakı səfirliyinin fəaliyyətinə də son qoyula bilər. Eyni zamanda Azərbaycan Qərbi Avropa ölkələri və beynəlxalq təşkilatlarla İrana münasibətdə həmfikir olmalıdır. İrana qarşı sanksiyalarda iştirak etməliyik. İqtisadi, ticarət əlaqələrimizə son qoyulmalıdır. İranla bağlanmış ayrı-ayrı müqavilələr, razılaşdırılmış layihələr dondurulmalıdır. İranla münasibətlərə yenidən baxılmalıdır".

**Millət vəkili Asim Mollazadə də "Şərq"ə açıqlamasında İranın 4 diplomatının Azərbaycandan qovulmasına münasibət bildirib:** "Bütün beynəlxalq sazişlərə uyğun olaraq diplomatiyaya zidd fəaliyyət göstərən hər bir şəxs ölkədən xaric edilə bilər. 4 İran diplomatının fəaliyyəti diplomatik statusa uyğun olmayıb. Buna görə də ölkədən xaric edilirlər. Məsələyə beynəlxalq hüquq normaları çərçivəsində yanaşmaq gərəklidir. Qeyd etməliyik ki, səfirliyimizə qarşı terror hadisəsindən sonra Azərbaycan öz əməkdaşlarını geri çağırmışdı".

**Azərbaycanın tələbini "Şərq"ə dəyərləndirən Ağ Partiya sədri Tural Abbaslı deyib ki, iki ölkə arasındakı gərginlik ən pik həddə çatıb. Belə həddə çatmasında Azərbaycan tərəfinin heç bir günahı yoxdur:** "İkinci Qarabağ müharibəsi başlayandan indiyədək İran müxtəlif formada təxribatlara əl atıb. Müharibə dönəmində hərbi təxribatdan tutmuş, ölkə daxilində sabitliyin pozulması, casusluq fəaliyyəti ilə məşğul olub. Azərbaycanın İrandakı səfirliyinə hücum da edildi. Vətəndaşımız terrorun qurbanı oldu.

Digər bütün ölkələr kimi, Azərbaycan da beynəlxalq hüquqa söykənərək istədiyi xarici hökumət vətəndaşını arzuolunmaz şəxs elan edə bilər. Bunun açıqlamasını vermək məcburiyyətində deyil.

Əminəm ki, xüsusi xidmət orqanlarımız həmin 4 nəfərin fəaliyyəti ilə bağlı ölkə rəhbərliyinə və XİN-ə əsaslı faktlar təqdim ediblər. Onların Azərbaycanda qalmaları təhlükəsizliyimizə zidd olduğu üçün belə bir tələb irəli sürülüb. Hər halda Azərbaycan tərəfinin addımından sonra İrandan reaksiya gələcək".

**İsmayıl Qocayev,**
**Aygün Tahir**



## Tanınmış yazıçıya vəzifə verildi

**Azərbaycan Ədəbiyyat Fonduna yeni baş direktor təyin olunub. Bu vəzifəyə tanınmış yazıçı, Azərbaycan Yazıçılar Birliyi İdarə heyətinin üzvü yazıçı Varis Yolçuyev gətirilib.**

Bu barədə yazıçı özü məlumat verib.

Qeyd edək ki, Varis Avrasiya Millətlər Assambleyası Ədəbiyyat Şurasının həmsədri, Beynəlxalq Yazıçılar Gildiyasının ("İGOW Berlin", Almaniya), PEN klubun ("PEN International", İngiltərə) üzvü, Yazıçıların Beynəlxalq Nyu-York Konfransının iştirakçısıdır.

*Xatırladaq ki, Azərbaycan Yazıçılar Birliyi Ədəbiyyat Fondu 1936-cü ildə yaradılıb, onun ilk rəhbəri həmin dövrdə Azərbaycan Yazıçılar İttifaqına sədrlik edən Məmmədkazım Ələkbərzadə olub.*

## DSK-lar üzrə seçici siyahıları MSK-ya təqdim edilib




**Dairə seçki komissiyalarının müvafiq seçki dairələri üzrə ilkin seçici siyahılarını Mərkəzi Seçki Komissiyasına təhvil vermək üçün ayrılan müddət başa çatıb.**

Seçki qanunvericiliyinə əsasən, yanvar ayının əvvəllərindən etibarən Azərbaycan Respublikası üzrə vahid seçicilər siyahısının tərtib olunması prosesinə başlanılıb.

Vahid seçicilər siyahısının tərtib edilməsi ilkin olaraq məntəqə seçki komissiyaları tərəfindən aparılıb.

Bu proses məntəqə seçki komissiyaları tərəfindən qanunla nəzərdə tutulmuş müddətdə seçki məntəqələrinin hüdudlarında həyata keçirilib. Seçki Məcəlləsinin tələblərinə əsasən, məntəqə seçki komissiyaları məntəqə üzrə tərtib edilmiş seçici siyahılarını fevralın 5-dən gec olmayaraq müvafiq dairə seçki komissiyalarına təqdim edilib.

Qanunvericiliyə əsasən, dairə seçki komissiyaları isə müvafiq seçki dairələri üzrə ilkin seçici siyahılarını aprelin 5-dək MSK-ya təhvil verməlidir. MSK da öz növbəsində vahid seçicilər siyahısının ölkə üzrə tərtib edilməsini həyata keçirəcək.

Bu prosesə ən gec may ayının sonuna qədər yekun vurulacaq və ölkə üzrə yenidən tərtib olunmuş vahid seçicilər siyahısı MSK-nın rəsmi internet səhifəsində yerləşdiriləcək.

# AKP iqtidarı vədlərini yerinə yetirəcək

## Seçkilərədək Ərdoğan bənzər qərarlarla "Cümhur İttifaqı"nın səs faizini, seçkidə yenidən qalib olmaq şansını artıra bilər



**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədri, "Cümhur İttifaqı"nın prezidentliyə namizədi və hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın vətəndaşlara vəd etdiyi sürprizlərin nədən ibarət olduğu açıqlanıb. Hazırda hökumət 3 əsas istiqamət üzrə iş aparır. Məlumata görə, bura "Ailə hesabı"nın yaradılması, Vətəndaşlıq Fondunun təsisi və gənclərə bayram bonusunun verilməsi daxildir.**

Türkiyədə ailə həyatı qurmaq ərəfəsində olan cütlüklərə 2-3 il müddətində geri qaytarılması nəzərdə tutulmayan 250 min lira, yəni 22 min manat vəsait ayrılacaq. Təsis edilən Vətəndaşlıq Fonduna əsasən uşaq dünyaya gəldikdən sonra dövlət onlar üçün hər ay 100 və ya 200 lira vəsait ayıracaq. Uşaqlar 18 yaşına çatdıqdan sonra həmin vəsaitdən istifadə edə biləcəklər. Həmçinin tələbələrə ildə iki dəfə bayram bonusu veriləcək. Qeyd olunub ki, R.T.Ərdoğan bir tərəfdən seçkilərə hazırlaşır, digər tərəfdən qarşıdakı dövr üçün nəzərdə tutulan layihələrin icrasını davam etdirir. Xatırladaq ki, mayın 14-də Türkiyədə prezident və parlament seçkiləri keçiriləcək. Dövlət başçısı postu uğrunda 4 namizəd mübarizə aparacaq. Bunlar "Cümhur İttifaqı"nın namizədi Rəcəb Tayyib Ərdoğan, "Millət İttifaqı"nın namizədi, müxalif Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıcdaroğlu, müxalif Məmləkət Partiyasının lideri Məhərrəm İncə və "Ata İttifaqı"nın namizədi Sinan Oğandır. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, mayın 14-də ümumilikdə 60 milyon 904 min 499 seçici səs verəcək. Türkiyədən kənarda olan seçicilərin sayı isə 3 milyon 286 min 786 nəfərdir.

**Ağ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə açıqlamasında bildirib ki, seçkilərdə insanlara müxtəlif vədlərin verilməsi və daha sonra onların yerinə yetirilməsi çox önəmlidir. Ekspertin sözlərinə görə, hazırda iqtidarda olan qüvvənin sözügedən vədləri yerinə yetirəcəyinə şübhə yoxdur və müxalifətin vədləri ilə müqayisədə daha ağlabatandır:** "Əgər AKP iqtidarı vaxtı ilə verdiyi vədləri yerinə yetiribsə, seçki öncəsi verdiyi sözləri də gələcəkdə tutacağı ehtimalı böyükdür. Vətəndaşlar üçün daha cəlbedici və inandırıcıdır. Bu cür addımlar seçicinin baxışını formalaşdırır və seçici səsini inandığı siyasi qüvvəyə verir. Xatırlayırsızsa, Gürcüstanda prezident seçkisinin birinci turunda müxalifətin namizədi qalib çıxmışdı. Amma ikinci tur keçirilənədək iqtidar tərəfi çox mühüm qərar verdi və əhalinin banklara olan borclarının bir hissəsi silindi. Məhz bu addıma görə, partiya yenidən iqtidar oldu. Mayın 14-də keçiriləcək seçkilərədək Ərdoğan bənzər qərarlarla "Cümhur İttifaqı"nın səs faizini, seçkidə yenidən qalib olmaq şansını artıra bilər. Görünür, mövcud iqtidar əhalinin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması üçün seçkiyə kimi növbəti addımlarını atacaq. Müxalifətin vədləri isə elə vəd olaraq qalacaq".

**İsmayıl Qocayev**



# Fazil Mustafanın xəstəxanadan ilk fotosu

## Mirşahin Ağayev deputatdan müsahibə alıb

**Evinin qarşısında silahlı hücuma məruz qalan deputat Fazil Mustafanın müalicə aldığı xəstəxanadan fotosu yayılıb.**

Foto Real TV-nin rəhbəri Mirşahin Ağayevlə deputatın müsahibəsi zamanı lentə alınıb.

Xatırladaq ki, martın 28-də saat 21:51-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında - Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Babək küçəsi ev 2 "Z" ünvanında "Kalaşnikov" konstruksiyalı avtomat silahından atəş açılaraq terror aktı törədilib.

Terror aktı nəticəsində Fazil Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 277 (dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etmə) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb.

# Vəziyyət uzunmüddətli belə davam edə bilməz

## Ermənilər Bakının vətəndaşlıq tələbini tədricən yaxına buraxacaq



**"Laçın yolundakı aksiyanın tələbi dəyişir. Ermənilər yalnız Azərbaycan vətəndaşlığını qəbul etdikdən sonra aksiyanın başa çatması məsələsi müzakirə olunacaq".**

Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, separatçı rejimin qondarma "dövlət naziri" Qurgen Nersisyan Bakının bununla Xankəndinə tələb göndərdiyini deyir: "Bakı hələ Xocalı görüşündən sonra separatçılara ismarıc yollamışdı. Ya reinteqrasiya prosesini qəbul edin, ya da daha çox çətinliklər olacaq. Bu görüşdən sonra keçirilən əməliyyatlar nəticəsində separatçıların "nəfəslikləri" bağlandı. Buna paralel olaraq, görüntülər aksiya ərazisində Laçın yoluna nəzarətin daha da gücləndirildiyini deməyə əsas verir.

Mövcud situasiyada ermənilərin xarici aləmlə bağlantı qurmasının yolu Azərbaycan vətəndaşlığını qəbul etməkdən keçir. Onların yalnız vacib məsələlərdə - Ermənistandakı qohumu ölərsə, yaxud ağır xəstəliyə tutularsa, yoldan keçidinə icazə veriləcək. Bu vəziyyət uzunmüddətli davam edə bilməz və proseslər ermənilərin Bakının vətəndaşlıq tələbini tədricən yaxına buraxacağı yönündə inkişaf edir".

**İsmayıl**



# Ukraynada da hadisələr belə başlamışdı

## Rusiya Qazaxıstan üçün də sanki eyni ssenari hazırlayıb

**"Kreml Ukrayna ilə "məsələni" bitirməmiş Qazaxıstana keçib. Mərkəzi Asiyanın bu ölkəsinin şimalındakı Petropavlovsk şəhərində bir neçə gün əvvəl 19 "fəal" Qazaxıstandan öz "müstəqilliklərini" elan edib və "Xalq Şurasını" çağırdıqlarını açıqlayıblar". Bunu "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitikin sözlərinə görə, separatçılar vurğulayıblar ki, Qazaxıstan dövlətinə etibarları yoxdur, ona görə də "müstəqilliklərini, sərbəstliklərini və suverenliklərini elan ediblər".**

Separatçılar Qazaxıstanın təhsil, qida məhsulları və səhiyyə sisteminə qarşı çıxdıqlarını da bildiriblər. Onlar bununla bağlı xüsusi mətn yayıblar: "SSRİ dağıldıqdan sonra Qazaxıstanın şimalında belə hallar bir neçə dəfə baş verib, hər dəfə separatçılığın qarşısı alınıb. Ancaq indi durum fərqlidir. Kreml Rusiyanın perimetri boyu "rus dünyasını" formalaşdırmağa çalışır və birinci Ukraynadan başlayıb. Kreml paralel olaraq ətrafındakı digər ərazilərə də boylanır. Ona görə də Qazaxıstanda separatçıların kiçik otaqdan fəaliyyətə başlamaları təhlükənin miqyasının az olduğu anlamına gəlmir".

Ekspert xatırladıb ki, Ukraynada da hadisələr belə başlamışdı: "Yaxşı xatirimdədir, 2014-cü ildə Donetskdə yerli universitetlərin birində çalışan professorla söhbətim olmuşdu. O mənə deyirdi ki, Donetskdə separatçılar yerli əhali arasında dayaqlara malik deyildilər, onların mitinqlərinə heç 100 nəfər çıxmırdı. Ancaq vəziyyət bir anda dəyişdi, elə mən orda olarkən inzibati binalar ələ keçirildi, Rusiyanın müdaxiləsi və yerli əhalinin Ukrayna əleyhinə qızışdırılması vəziyyəti hazırkı həddə gəlib çatdırdı. Qazaxıstan üçün də sanki eyni ssenari hazırlanıb. Əhalisinin 60 faizə yaxını rus olan Petropavlovsk şəhəri Rusiya ilə sərhəddən 40 kilometr cənubda yerləşir. Ona görə nə qədər ki, Petropavlovsk şəhərinin 19 "fəalı" işi böyütməyiblər və bölgədə ikinci Donbass yaratmayıblar, Astana məsələni həll etmək məcburiyyətindədir".

**İsmayıl**

# Azərbaycanda xüsusi əməliyyat keçirilib

## ”Kərimə” dövləti qurmaq istəyən dəstə üzvləri saxlanılıb





**Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq birgə məlumat yayıblar. Orqanların məlumatında bildirilib ki, qurum əməkdaşları tərəfindən bir qrup şəxsin İran xüsusi xidmət orqanları tərəfindən ələ alınaraq ölkə ərazisində törədəcəkləri cinayət əməllərinin qarşısının alınması məqsədilə birgə xüsusi kompleks əməliyyat tədbirləri həyata keçirilib.**

Qeyd olunub ki, İran xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və Bəxtiyar Bayramov Tərtər rayon sakini Arif Cümşüdovu şirnikləndirici vədlər müqabilində ələ alıblar. Ona ölkə ərazisində silahlı iğtişaşlar törətməklə hakimiyyətin ələ keçirilməsi, konstitusion quruluşun zorla dəyişdirilməsi və şəriət qanunları ilə idarə olunan ”Kərimə” dövlətinin qurulması məqsədilə ”müqavimətçi dəstə” yaratması barədə tapşırıqlar veriblər. Arif Cümşüdov verilmiş tapşırıqlar əsasında ətrafında olan dini radikalizmi təbliğ edən tanışlarını da bu işə cəlb edib. O, yaşadığı evdə mütəmadi olaraq təşkil etdiyi gizli yığıncaqlarda Rufulla Axundzadə və Bəxtiyar Bayramovun göstərişlərini həmin şəxslərə çatdırıb. Dəstə üzvləri əlavə şəxslərin də cəlb edilmələri istiqamətində fəaliyyət göstəriblər. Məlumatda vurğulanıb ki, Rufulla Axundzadə Bakı şəhər sakini Anar İsayevi də əməkdaşlığa cəlb edərək ona da bənzər tapşırıqlar verib. O, ələ alınmış şəxslərə yüksək maddi gəlir, silah və digər bütün lazımi dəstəyin veriləcəyini vəd edib. Saxlanılan şəxslər özlərini cəmiyyətdə ”dindar” kimi qələmə verərək sosial şəbəkələr üzərindən İran lehinə təbliğat aparıblar. Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün xaricdən aldıqları tapşırıqları yerinə yetiriblər. Bildirilib ki, bu istiqamətdə əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

### *Fərəc Quliyev: "İranla savaşda millət özü də iştirak etməlidir. Bu, təkcə xüsusi xidmət orqanlarının işi deyil, millətin savaşıdır"*

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev ”Şərq”ə açıqlamasında bildirib ki, İran açıq şəkildə, bütün üsullarla Azərbaycana qarşı fəaliyyətə başlayıb. Partiya sədri deyib ki, Tehrandakı səfirliyimizə hücum da Azərbaycandakı İrana bağlı yatmış hücrələrini oyatmaq, ”silahlı basqınlara başlayın” mesajı idi:** ”Sonrakı hadisələr, xüsusən ”Kalaşnikov” avtomatı ilə millət vəkilinə hücum göstərdi ki, İran bütün hücrələrini oyadaraq Azərbaycana qarşı mübarizə aparmaq istəyir. Onsuz da müxtəlif vaxtlarda, fərqli formalarda ölkəmiz əleyhinə fəaliyyət göstəriblər. İctimaiyyət bilməsə də, xüsusi xidmət orqanları bundan xəbərdar olub və tədbirlər görüb. Məsələn, Azərbaycan ərazisindən nüvə komponentlərinin daşınmasının və bir neçə terror aktının qarşısı alınıb. Ancaq indi İran açıq fəaliyyətə keçib. Sərhədlərimizdə təlim keçirməklə, təyyarə uçurmaqla, rəsmilərin, generalların Azərbaycanı təhdid etməsi ilə, Ermənistana dəstək çıxmaqla öz mövqelərini ortaya qoyublar. Yəni İran əlindəki bütün resusrlarla dövlətimizə qarşı addımlar atıb. Bu, artıq müharibədir, savaşın bir formasıdır. Ona görə də Azərbaycan heç nədən çəkinmədən İranın casus şəbəkəsini zərərsizləşdirməlidir. Məqsədli şəkildə təbliğat gedir ki, guya bu əməliyyatlar ”dindarlara” qarşıdır. Belə təxribatlar olacaq, çünki İran hər cür vasitəyə əl atır. Əslində din onlar üçün sadəcə pərdədir, silahdır. 5-10 nəfərin məqsədyönlü şəkildə yaratdığı hay-küyə fikir vermədən öz işimizi görməliyik. Azərbaycan dövlətinə qarşı olan daxildəki bütün şəbəkələr zərərsizləşdirilməlidir”.

**F.Quliyevin fikrincə, Azərbaycan İrana qarşı beynəlxalq qüvvələrin apardığı mübarizəyə açıq şəkildə dəstəyini verməlidir:** ”Sanksiyalara qoşulmaq lazımdır. İsrail və ABŞ-la çox ciddi formada diplomatik məsələləri səhmana salmalıyıq və ehtiyac olarsa bir koalisyon qurmalıyıq. Sərhədlərimizdə baş verənlərə, gözlənilən təhlükələrə, təhdidlərə cavab üçün açıq mexanizmlərlə işləməyə başlamalıyıq. Bizim necə və nə cür davranmağımızdan asılı olmayaraq, İran ölkəmizə qarşı bütün imkanlarını ortaya qoyacaq. Uzun zamandır Azərbaycanın düşmənlərinə hərtərəfli dəstək verir, ölkəmizdə ”şəriət dövləti” yaratmaq niyyətində olduğunu gizlətmirlər. İranın terrorçu dövlət olduğunu, Azərbaycanda çevriliş etmək istədiyini, konstitusion quruluşu dəyişmək cəhdlərini beynəlxalq aləmə çatdırmalıyıq. Lazım gələrsə, bununla bağlı BMT və digər strukturlarda məsələ qaldırmalıyıq. İrana qarşı beynəlxalq tədbirlərin görülməsinə nail olmalıyıq. Adekvat addımlar atmalıyıq”.

**Partiya sədri əlavə edib ki, ciddi şəkildə maarifləndirmə işləri də aparılmalıdır:** ”Efirlərdə bayağı verilişlərin yerinə maarifləndirici proqramlar verilməlidir. Düzdür, dövlət televiziyalarımız, milli dövlətçilik mənafelərimizi qoruyan mətbuat orqanlarımız İranın mahiyyətini ortaya qoymaqla məşğuldur. Bu iş mütəmadi icra olunmalıdır. İranla savaşda millət özü də iştirak etməlidir. Bu, təkcə xüsusi xidmət orqanlarının işi deyil, millətin savaşıdır. Güney Azərbaycanla bağlı xüsusi siyasət yürüdülməlidir. Orada, ölkəmizdə və kənarda olan soydaşlarımızın koordinasiyası üçün dəstək verilməlidir. İranda milli azadlıq hərəkatının qalib gəlməsi üçün əzmlə çalışmalıyıq. Əgər İran bu məsələdən sıyrılıb çıxarsa, iki ciddi fəsad törədəcək. Birincisi, Güney Azərbaycanda bütün fəalların boynunu kəndirə keçirəcək. İkincisi, bütün imkanları ilə ölkəmizə qarşı daha sərt tədbirlərə əl atacaq. Azərbaycanda İranın hələ məlum olmayan hücrələri mövcuddur. Hətta hakimiyyət orqanlarına soxuşdurulmuş adamları var. QHT-lərdə, mediada, partiyada da var və bəzən özlərini ifşa edirlər. İctimaiyyət qolunu çırmalayaraq dövlətə dəstək verməlidir. İranla görünməyən müharibədə bütün cəmiyyəti səfərbər etməyi bacarmalıyıq”.

**İsmayıl Qocayev**

# Hədəfdə Paşinyan və onun hakim komandasıdır

## Ermənistandakı etiraz dalğasının Rusiyadan idarə olunduğu istisna olunmur



**Ermənistan daxilində vəziyyət yenidən qarışıb. Hədəfdə hökumət başçısı Nikol Paşinyan və onun hakim komandasıdır. Küçələrə çıxan etirazçılar, xüsusən 44 günlük müharibədə ölən əsgərlərin valideynləri Ermənistanın düşdüyü vəziyyətə görə, indiki hakimiyyəti, Paşinyanı suçlayırlar.**

Müxalifətin ”Birgə” hərəkatının üzvləri aprelin 11-də növbəti etiraz aksiyası keçirəcəklərini deyiblər. Ermənistan Demokratik Partiyasının lideri Aram Sarkisyan bildirib ki, onlar etiraz aksiyası ilə yanaşı, Qarabağa getməyə də borcludurlar: ”Qaregin Njdenin abidəsinin yanından Xankəndiyə gedəcəyik. Öz maşını ilə gələ bilən hər kəsi bizə qoşulmağa dəvət edirik. Əgər indiki hakimiyyət xalqımızı qoruya bilmirsə, biz bunu özümüz edəcəyik. Paşinyan deyir ki, aprelin 1-dən alternativ yol açıqdır. Gedək görək belədirmi?”. Ekspertlərin qənaətincə, Ermənistanda narazı kütləni hökumətin üzərinə qaldıran, baş nazirin istefasını gündəmə gətirən Moskvadır. Məqsədi də İrəvan hakimiyyətinə mesaj verməkdir.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə bildirib ki, Nikol Paşinyan Qərbin layihəsidir və onların dəstəyi ilə Ermənistanda hakimiyyətə gətirilib. Partiya rəhbəri qeyd edib ki, Paşinyan rəhbərliyə gəldiyi gündən etibarən Ermənistanı Rusiyadan qoparmaq, uzaqlaşdırmaq siyasəti güdür:** ”Ancaq o da sirr deyil ki, Ermənistan vaxtı ilə Rusiya tərəfindən yaradılmış qondarma bir dövlətdir. Moskva olmadan Ermənistanın mövcudluğu mümkün deyil və hər zaman forpost rolunu oynayıb. Ermənistanda Rusiyanın 102-ci hərbi bazası, hərbi hava qüvvələri yerləşib. Ölkə sərhədlərini rus hərbçiləri qoruyur. Ermənistanın aparıcı şirkətləri Rusiyanın törəmə şirkətləri kimi fəaliyyət göstərir. Paşinyandan əvvəlki rəhbərlər birbaşa Kremlin vassalları olublar, Moskvanın dəstəyi və himayəsi ilə prezident postunda oturublar. Paşinyan müəyyən qədər Qərbə meyillənməklə, atdığı addımlarla bir növ Rusiyaya arxa çevirmiş sayılır. Avropa İttifaqının ”mülki missiyası”nın bölgəyə gətirilməsi, KTMT ilə bağlı İrəvanın mövqeyi və s. addımlar Rusiyanı hiddətləndirir. Kreml Ermənistanda vəziyyəti qarışdırmaqla Paşinyana dərs vermək istəyir. Müharibədən sonra Robert Koçaryan meydana çıxmışdı və Rusiyanın dəstəyi ilə hakimiyyətə gəlmək iddiasını ortaya qoymuşdu. Amma Moskva gördü ki, erməni cəmiyyətində Paşinyanın nüfuzu var. Həm də baş nazirə alternativ fiqur tapılmadığı üçün heç bir addım atılmadı. Paşinyan Kremlə çağırıldı və hakimiyyətini qoruyub saxlamaq üçün qarşısında şərtlər qoyuldu. Amma baş nazir bir ayağını Qərbdən çəkmədi və anti-rus siyasətinin formalaşmasına imkan yaratdı. Etiraz dalğasının Rusiyadan idarə olunduğunu istisna etmirəm”.

*A.Əlizadə vurğulayıb ki, Paşinyanın Ermənistanda hakimiyyətdə qalması, yaxud getməsi geniş anlamda nəyisə dəyişməyəcək:* ”Sadəcə indiki baş nazir sülh danışıqlarında Azərbaycanın şərtlərini müəyyən formada qəbul etməklə erməni cəmiyyətində ”Bakıya güzəştə gedən” rəhbər kimi səciyyələndirilir. Həmçinin, müharibədəki məğlubiyyətə və sonrakı proseslərə görə, Paşinyan ittiham olunur. Rusiya bu amillərdən istifadə etməklə baş naziri əvəzləməkdə maraqlı olduğunu gizlətməyib. Amma hazırda Kremlin ”stavka” etdiyi hansısa güc, fiqur yoxdur. O səbəbdən ara-sıra etiraz aksiyaları ilə ”yolunu azmış” Paşinyana dərs verməyə çalışır. Ölkədə gərgin mühitin qalmasını istəyir. Bununla yanaşı, ermənilərin diliylə ”Qarabağa yürüş edərək” rəsmi Bakıya da mesajlarını ötürür. Lakin Ermənistanda hakimiyyət başında kimin olmasından asılı olmayaraq, istənilən halda Azərbaycanla sülh müqaviləsi bağlanmalı, mövcud şərtlərlə razılaşmalıdırlar. Paşinyanın başqası ilə əvəzlənməsi bu prosesi sadəcə gecikdirər, birdəfəlik ortadan qaldıra bilməz”.

**İsmayıl Qocayev**



**Özbəkistan Ali Məclisinin senatorları 39-cu plenar iclasda Azərbaycan hökuməti ilə hərbi və hərbi-texniki əməkdaşlıq haqqında Sazişin təsdiq olunması barədə qanunu təsdiqləyiblər.**

# Özbəkistan parlamenti Azərbaycanla hərbi əməkdaşlığa dair razılaşmanı təsdiqləyib

İclasda senatorlar ”Özbəkistan Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlığa dair Sazişin təsdiqlənməsi barədə” (Daşkənd, 21 iyun 2022-ci il) və ”Özbəkistan Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında hərbi-texniki sahədə əməkdaşlığa dair Sazişin təsdiqlənməsi barədə” (Daşkənd, 21 iyun 2022-ci il) qanunları təsdiqləyiblər.

Xatırladaq ki, bu sazişlər Azərbaycan və Özbəkistan hökumətləri arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 iyun 2022-ci il tarixində Özbəkistana səfəri zamanı imzalanıb.

*Qeyd edək ki, Özbəkistan parlamentinin 39-cu plenar iclası 6-7 aprel 2023-cü il tarixlərində keçirilir.*

# Türkiyə və yerli media nümayəndələri üçün azad edilmiş ərazilərə media-tur təşkil olunub



**Aprelin 6-da Müdafiə Nazirliyinin təşkilatçılığı ilə azad edilmiş ərazilərdə Azərbaycan Ordusunun fəaliyyəti ilə tanış olmaq məqsədilə bir qrup Türkiyə və yerli media nümayəndələri üçün növbəti media-tur təşkil edilib.**

Bu barədə ”Şərq”ə Azərbaycan Müdafiə Nazirliyindən bildirilib.

Səfər çərçivəsində ilk olaraq media nümayəndələri azad edilmiş ərazilərin Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə qarşılıqlı əlaqədə minalardan təmizləmə prosesini və qardaş Türkiyənin istehsalı olan MEMATT (Mexaniki Mina Təmizləmə Təchizatı) mühəndis texnikasının praktiki tətbiqini izləyiblər.

Media nümayəndələrinə məlumat verilib ki, Azərbaycan Ordusunun şanlı qələbəsi ilə bitən Vətən müharibəsindən bu günədək Müdafiə Nazirliyinin mühəndis bölmələri tərəfindən 29000 hektaradək ərazi təmizlənmiş, erməni hərbçiləri tərəfindən basdırılmış 23230 ədəd mina, eləcə də döyüş əməliyyatlarından qalma partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

Media-tur çərçivəsində media nümayəndələrinə artilleriya bölmələrinin nümunəvi döyüş hazırlığı məşğələsi də nümayiş etdirilib

Media nümayəndələri hərbi qulluqçuların fəaliyyətini izləyib, çəkilişlər aparıb və hərbçilərdən müsahibələr götürüblər.

Hərbi qulluqçular onlar üçün yaradılan şəraitdən məmnunluqlarını ifadə edib, azad olunmuş ərazilərdə xidmət etməkdən qürur duyduqlarını bildiriblər.

# İran parlamenti xirtdəyədək çamura bulaşıb

## Saxta ”müsəlman həmrəyliyi” təbliğatı ifşa olunduqca molla rejimi daha da aqressivləşir



**İran parlamenti İsraildə səfirlik açdığı üçün 210 səslə Azərbaycana qarşı bəyanat qəbul edib. Bəyanatda səfirliyin açılmasının mənfi siyasi nəticələrinin olacağı bildirilib. Eyni zamanda XİN-ə bununla bağlı addımlar atmaq tövsiyə edilib. Sənədi qəbul edən vəkillər Azərbaycanın Fələstində nümayəndəlik açmasını bilərəkdən görməzdən gəliblər.**

Üstəlik, dünya müsəlmanlarının ölkəmizi məzlum fələstinlilərin qətli və cinayətində İsrailin şəriki hesab edəcəyini vurğulayıblar. Onlar, eyni zamanda İsraildə səfirlik açılmasını ”məzlum Fələstinin fundamental hüquqlarının” pozulması kimi qələmə verib və bütün müsəlman ölkələrini, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatını bu addımı qınamağa çağırıblar.

**Siyasi şərhçi Elçin Mirzəbəyli bildirib ki, ”İran” adlanan ölkənin Azərbaycan Respublikasına qarşı hücumları səngimək bilmir. Analitikin sözlərinə görə, çoxüzlü və riyakar mahiyyəti, fitnəkarlığı, saxta ”müsəlman həmrəyliyi” təbliğatı ifşa olunduqca molla rejimi daha da aqressivləşir:** ”Rejimin parlamenti xirtdəyədək bulaşdığı çamurun fərqinə varmadan ölkəmiz əleyhinə ”bəyanat” qəbul edib. Müsəlmanların üz qarası olan molla rejiminin deputatları utanıb-qızarmadan, özlərinə xas ”bəlağətli” və qıpqırmızı cümlələrlə Azərbaycanı İsraildə səfirlik açdığına görə ittiham ediblər. Sən demə, biz ”məzlum fələstinlilərin haqqına girmişik”. Molla rejiminin ermənilərlə bağlı ”qırmızı xətt”lərinin çox olduğunu bilirik. Amma əgər ”İran” adlanan ölkənin leksikonunda həyasızlığın ”qırmızı xətt”i deyilən bir anlayış varsa, o zaman bu ”bəyanat” adlanan kağız parçası ”qırmızı xətt”i nəinki adlayıb, hətta min kilometrlərlə geridə buraxıb. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan torpaqlarının işğal altında olduğu zaman kəsiyində Ermənistanın təcavüzünü, azərbaycanlılara məxsus dini və mədəni abidələrin dağıdılmasını, ermənilərin vandalizm və etnik təmizləmə siyasətini pisləyib, Xocalı soyqırımını tanıyıb. Amma molla rejiminin təmsilçiləri işğalçılarla ortaq mədəniyyətə, dəyərlərə sahib olduqlarını bildiriblər. Xocalı qatilləri ilə öpüşüb-görüşüb, qanlı əllərini ikiəlli sıxıblar. Müsəlman azərbaycanlıların qanına susamış ermənilərə ”qardaş” deyiblər. Azərbaycan torpaqlarının erməni tapdağında olduğu dövrdə bircə dəfə də olsun molla rejiminin parlamentinin müsəlman azərbaycanlıların müdafiəsinə qalxdığının şahidi olmadıq. Tehranda, Rəştdə qondarma erməni soyqırımına abidələr ucaldığı, hər il uydurma qətliamın ”ildönümü”nün qeyd olunmasına şərait yaradıldığı halda Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsinə belə imkan tanımayıb”.

Ekspertin sözlərinə görə, əgər molla rejiminin sözdə ”parlament üzvləri” adlanan şər və böhtan püskürücüləri bu qədər cəsarətlidirlərsə, öz hökumətlərinin üzvlərinə və dini-siyasi rəhbərlərinə müraciət etsinlər”. Desinlər ki, ”Ay ağaye filankəslər, Ermənistana təzyiq göstərin ki, bu müqəddəs Ramazan günlərində müsəlman azərbaycanlıların İrəvandakı Göy Məscidə getmələrini, Qərbi azərbaycanlıların öz evlərinə qayıtmaları təmin edilsin. İndiki Ermənistan ərazisində, tarixi Azərbaycan torpaqlarında müsəlman azərbaycanlılara məxsus dağıdılmış məscidlər, tarixi və mədəni abidələr, ziyarətgahlar bərpa olunsun”. Edə bilməzsinizsə, o zaman boş-boşuna danışmayın”.

**İsmayıl**





***Mübariz Tağıyev:*** *"Bu mahnıları efirə buraxmaq ölkəyə xəyanətdir"*

***Qulu Məhərrəmli:*** *"İtirdiyimiz bir nəsil var. Musiqi zövqü formalaşmamış bir nəsil!"*

# Zorakılığı təbliğ edən mahnılar qadağan olunmalıdır

## Monitorinqin nəticələri şokedici, dəhşətli, sarsıdıcı, hətta faciəvidir

**Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi Azərbaycanda mahnıların monitorinqini aparıb. Monitorinqin nəticələri dünən keçirilən mətbuat konfransında açıqlanıb. Nəticələr şokedici, dəhşətli, sarsıdıcı, hətta faciəvidir. Mərkəz 350-yə yaxın mahnını monitorinqə cəlb edib, nəticədə 177 mahnıda 1253 norma pozuntusu müəyyənləşdirilib.**

Mahnıların monitorinqi zamanı 668 orfoepik, 111 leksik, 144 qrammatik, 330 üslub və ifadə səhvi aşkarlanıb. Monitorinqin nəticəsi olaraq Mərkəz milli musiqimizə yad elementlərin olduğu, üslub səhvləri ilə dolu, yad musiqi çalarlarının üstünlük təşkil etdiyi, məzmunsuz, həmçinin zərərli vərdişlərdən istifadəni, tüfeyli həyat tərzini, mental dəyərlərimizə zidd olan davranışları təbliğ edən, aqressiv hərəkətlərə və özünəqəsdə sövq edən mahnıların siyahısını tərtib edib. Siyahı "Mahnılarımız monitorinq aynasında" adlı kitabda öz əksini tapıb. Həmin mahnılar müəllif və ifaçılarının adları ilə birlikdə qeyd olunub.

### "Könül Kərimovadan Şəbnəm Tovuzluyadək..."

Siyahı çox böyük olduğundan həmin mahnı və ifaçıların bəzisinin adlarını qeyd edirik. İlkin Çərkəzoğlu "Aparır, kayf aparır", "Bomba kayfda", "Kayfım zor olanda" mahnısı, Məhəmməd Fəda - "Zır kayfdayam bu gün", Rüzgar - "Yenə gedirəm", İlqar Dəniz & Orxan Eşqin - "Nə, nə, nə nəşəni çəkdim, xu, xu, xu xumar apardı", Sənan & Vəli & Arzu "Bu da təzə temadır, yetim", Elçin Göyçaylı - "Ley-pey olmuşam", Ramil Sədalı - "Gecə ləzzət eləyir", İlqar Dəniz & Orxan Eşqin "Xuliqanski", Ülviyyə Namazova "Evli insan sevirəm", Azəri oğlu Cəfər - "Evli qadın sevirəm", İlqar Dəniz - "Bu nə dvijeniyadır", Cavad Rəcəbov "Balaca kişi", Şəbnəm Tovuzlu "Baldır balam", Üzeyir Mehdizadə & Rəqsanə "Dəli balam", Səmra - "Bandam", Günay İbrahimli "O kimdir ki?!", Tural Sədalı "Özümü atdım Xəzərə", Üzeyir Mehdizadə "Kəsəcəyəm damarları". Hind, ərəb, yəhudi və s. yad ritmlərlə müşayiət olunan mahnıların siyahısında da hazırda "populyar" olan ifaçıların və səsləndirdikləri bayağı mahnıların adları yer alır: Nazənin - "Səni sevirəm", Sevil, Sevinc & Nurlan Təhməzli "Baş bəlası", "Şəkər ilə bal", Nurlan Təhməzli "Öp, yar, ürəyimdən", Könül Kərimova & Aydın Sani - "Bəs mən səni kimdən soruşum?", Mətanət Əsədova - "Sevdim", Pərviz Bülbülə & Türkan Vəlizadə - "Rinnarin", Aqşin Fateh & Nəfəs - "Qar çiçəyi", Mina Hüseyn "Brend", Niyam Salami "Kefimiz düzələr", Aynur Dadaşova "Dünya hey fırlanır", Nəfəs & Aqşin Fateh "Yarəm", Şəbnəm Tovuzlu - "Olmaz"... Bəzilərini qeyd etdik. Heyrətə gətirən budur ki, ifaçılar arasında titullular da var. Bir neçəsi telekanallarda müəllif proqramları aparır, aparıcılıq edir, bu müğənnilərin əksəriyyəti efirin daimi qonaqlarıdır. Yəni tamaşaçı istəmədən onları dinləmək məcburiyyətindədir. Çünki televizor ekranı açılan kimi hərəsi bir kanalda "boy göstərir".





### "Xarici boğazlar, yad çalarlar..."

Mövcud mənzərəni dəqiqliklə göstərən Monitorinq Mərkəzi hesab edir ki, mənşəyi bilinməyən top-reytinqli bayağı mahnıların intensiv şəkildə yayımlanması ilə "trend-mahnı" anlayışının qeyri-iradi qəbul olunması, milli mədəniyyətimizə yad, bayağı mahnıların insanlara gerçəklik kimi təqdim edilməsi artıq həyəcan təbilinin çalınmasını zəruri edir. Aparıcı mütəxəssis Nazlıxanım Teyyubova ifa zamanı müxtəlif səslərin öz məxrəclərindən kənar səsləndirilməsinin, şəkilçilərin, mürəkkəb sözlərin yanlış tələffüz edilməsi və vurğunun yerində işlədilməməsinin adi hala çevrildiyini nəzərə çatdırıb. Əyani nümunələr əsasında nitq faktlarını təhlil edən məruzəçi bildirib ki, mahnı mətnlərində sözlər əksər hallarda kontekstə uyğun seçilmir, hətta dilin frazeoloji qatını təşkil edən sabit söz birləşmələrinin tərkibi dəyişdirilməklə məna təhrif edilir. Şəkilçilərin yanlış ixtisar edilməsi, qrammatik göstəricilərin yersiz şəkildə bir-birini əvəzləməsi, söz sırasının pozulması nəticəsində yaranan anlaşılmaz misralar mahnıların monitorinqi zamanı diqqətçəkən məqamlar kimi vurğulanıb. DDK yanında Monitorinq Mərkəzinin direktor müavini dosent Gülarə Əmirova deyib ki, son dövrlər mahnı yaradıcılığında ciddi böhran müşahidə olunur. Azərbaycan mahnılarında hind, ərəb, yəhudi və digər yad ritmlərin müşahidə olunması artıq adi hala çevrilib. G.Əmirova xarici boğaz və yad çalarlardan istifadəni, ifaçılıq sənətinin bəlli qayda-qanunlarından kənara çıxan improvizələri, sözlərin heca-heca tələffüzünü milli musiqimizin inkişafına böyük manelər kimi səciyyələndirib.

### "Bayağı mahnılar böyüməkdə olan nəslə çox böyük ziyan vurur"

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva bildirib ki, mahnılarımızda aşkar edilən nöqsanların kütləvi hal alması mədəniyyətimizin inkişafına mane olduğu üçün bu sahədə ciddi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi labüddür. Azərbaycan musiqisinin əsas qolu olmaqla dilimizin bütün incəliklərini əks etdirən mahnı janrında ədəbi dil normalarının kobud şəkildə pozulması bu sahədə də monitorinqin aparılmasını zərurətə çevirib. Monitorinqin nəticələrini ümumiləşdirən S.Əliyeva qeyd edib ki, mahnılarda dilimizin düzgün təbliği çox vaxt arxa plana keçir: "Mahnı mətnlərində kifayət qədər leksik və qrammatik norma pozuntusunun, üslub və ifadə səhvlərinin, ifalarda isə çox vaxt orfoepik normaya əməl edilməməsi və dialekt elementlərinin aşkarlanması buna əyani sübutdur. Monitorinq zamanı milli-mənəvi dəyərlərimizə zidd davranışları təbliğ edən çoxsaylı nümunələrə də rast gəlinib. Müəyyən edilən nitq faktları dilimizin özünəməxsus sabit qrammatik quruluşuna, leksik tərkibinə xələl gətirməklə yanaşı, bədii-estetik zövqümüzün korlanması, zəngin musiqi ənənələrimizin itirilməsi ilə bağlı narahatlığa əsas verir. Aşkar edilən nöqsanların kütləvi hal alması mədəniyyətimizin inkişafına mane olduğu üçün bu sahədə ciddi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi labüddür". S.Əliyeva qeyd edib ki, bu gün internet resurslarında təbliğ olunan bəzi bayağı mahnılar Azərbaycanın böyüməkdə olan nəslinə çox böyük ziyan vurur. Bu mahnıların yayımlanmasının qarşısı alınmalıdır. Ən vacib məsələ isə televiziya və radiolarda bu kimi mahnıların səsləndirilməsi və onları ifa edənlərin efirə çıxarılması qadağan olunmalıdır. Pozuntulara görə cərimə tətbiq etmək mümkündür.

### "Televiziyaların nəzdində bədii şuralar yaradılmalıdır"

Mövzu ilə bağlı Azərbaycan Respublikasının Xalq artisti, müğənni Mübariz Tağıyev Bakupost.az-a açıqlamasında "mahnı bazarı"nda vəziyyətin fəlakət həddə olduğunu deyib. O, televiziyaların iş prinsipinə diqqət çəkərək, bədii şura yaradılmasının zəruriliyini qeyd edib: "O vaxt SSRİ yanında bədii şuralar var idi. Bütün mahnılar, onların mətnləri süzgəcdən keçirilirdi. Bu gün isə bu prosesi görmürük. Təkcə dövlət televiziya və radiolarında qalıb. Mahnılar süzgəcdən keçməmiş efirə buraxılmamalıdır. Digərlərində kim nə istəsə, edir. Bəstəkarların, şairlərin adını yanlış verirlər. Belə gedə bilməz. İstər sosial şəbəkələr, istərsə də televiziyaların nəzdində bədii şuralar yaradılmalıdır. Ayrı çıxış yolu yoxdur. Sosial şəbəkədə fikir bildirməklə mümkün olan iş deyil".

Xalq artisti bildirib ki, bu gedişat Azərbaycan incəsənətinə ciddi zərbələr vuracaq: "Həmin insanlar fikirləşməlidir ki, bilmədikləri nəyisə söyləmək, bayağı mahnıları camaatın beyninə yeritmək Azərbaycana xəyanətdən başqa bir şey deyil. Hər bir insan bunu daxilində yaşamalı, düşünməlidir".

### Bu cür mahnılar bəzən ciddi radio proqramlarına da yol açır

Professor Qulu Məhərrəmli "Şərq"ə açıqlamasında monitorinqin nəticələrinin acı təəssüf doğurduğunu bildirdi:

- Yaxşı xatırlayıram, istedadlı şairimiz, mərhum Nüsrət Kəsəmənli təxminən 30 il əvvəl mətbuatda "Zövqümüzü xilas edin" başlıqlı məqalə ilə çıxış etmişdi. Ara mahnılarını, meyxana üslubunda yazılan, ifa edilən mahnıları tənqid etmişdi. İndi belə bir məqalə yazılsa, başlığı "Mənəviyyatımızı və dəyərlərimizi xilas edin", olmalıdır. Təəssüf doğuran həm də budur ki, bu cür mahnılar bəzən ciddi radio proqramlarına da yol açır. Məzmunsuz mətnlər, mənasız sözlər, melodiya çaları olmayan mahnılar... Musiqi zövqümüzü kimlərin ixtiyarına vermişik? Neft və Sənaye Akademiyasının tələbələri Novruz şənliyində kriminal avtoritetə həsr olunmuş mahnının sədaları altında rəqs edir. Mən tələbələrimlə söhbət edəndə heyrətə gəlirəm ki, bu necə baş verir? Bayağı, zövqsüz mahnılar gənclər arasında xitə çevrilir. Vəziyyət bu həddə çatıbsa, demək "SOS" siqnalı verilməlidir. Bizim itirdiyimiz bir nəsil var. Musiqi zövqü formalaşmamış bir nəsil! Bu dəhşətli vəziyyətlə mübarizə aparılmasa, yeni nəslin faciəsi olacaq. Azərbaycan televiziyasının, radiosunun musiqi fondu var, harda ki görkəmli bəstəkarların, bəstəkarlıq məktəbi nümayəndələrinin mahnıları, Azərbaycanın görkəmli sənətkarlarının, xanəndə və ifaçılarının ifa etdiyi mahnılar toplanıb və qorunur. Bizim musiqi təbliğatımız bu istiqamətdə aparılmalı və milli dəyərlərimizi təşkil edən musiqilərimiz təbliğ olunmalıdır. Musiqidə dilə, dəyərlərə müdaxilə etmək görünməz müharibədir. İfaçıların çoxu da İran boğazı üzərində oxuyur. Və zövqləri başqa səmtə yönləndirirlər. Nə etməliyik? Qadağalar olmalıdır, lakin unutmayaq ki, nəyə qadağa qoyulursa daha geniş yayılır. Burada 2 istiqamətdə işlər paralel aparılmalıdır. Birincisi, musiqi zövqünün düzgün formalaşması istiqamətində işlər aparılmalı, ikinci isə inzibati üsullardan istifadə edilməlidir. Metrostansiyaların çıxışlarındakı satış köşklərində bayağı, meyxana üslublu, zorakılıq, milli dəyərlərimizə yad elementlər daşıyan mahnıların səsləndirilməsi qadağan edilməlidir. Televiziyalar da musiqi və əyləncə proqramlarının tərtibatına yenidən baxmalıdırlar. Bəzən irad tuturlar ki, sovet vaxtı saqqallı və ya qısa ətək, açıq-saçıq geyimli ifaçıları efirə buraxmırdılar. Dəyərlərin qorunması baxımından belə şərtlər indi labüd görünür. Böyük bir nəslin musiqi zövqü ona görə korlanmadı ki, hər mahnı efirə ayaq aça bilmirdi. Bir var bayağı mahnı kütləvi şəkildə hər yerdə, hər məkanda səslənsin, bir də var, müəyyən qədər qadağa olsun. Küçədə yüksək səslə səsləndirilən mahnılar istər-istəməz qulağa daxil olur. Efir də belədir. Televiziya kütləvi, ictimai olduğu üçün milyonlarla izləyiciyə bayağı yox, milli musiqimizdən qaynaqlanan mahnılar təqdim edilməlidir.

**Məlahət Rzayeva**



# Kreml "B" planını işə salır?

"Ermənistanla sülh sazişi vasitəçisiz imzalanmalıdır"

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) missiyasının Azərbaycan və Ermənistan sərhədinə göndərilməsi vaxtı İrəvandan asılıdır.**

Bunu brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. O, qeyd edib ki, Rusiya belə bir addımın regionda vəziyyətin sabitləşməsinə kömək edəcəyinə əmindir. "Belə qərarlar KTMT-də razılaşdırılır və Kollektiv Təhlükəsizlik Şurasının qərarı ilə ən yüksək səviyyədə təsdiqlənir. Vaxta gəlincə, mənə elə gəlir ki, burada da hər şey aydındır, hər şey erməni həmkarlarımızdan asılıdır. Onlar hazır olduqdan sonra biz təşkilatın müşahidə missiyası üzrə əsaslı işə qayıda biləcəyik. Yəni hazırda top İrəvandadır", - Zaxarova bildirib. Diplomatın sözlərinə görə, Rusiya İrəvanın KTMT nümayəndələrini qəbul etməkdə hələ də maraqlı olmasından razıdır. **Rusiyanın rəsmi nümayəndəsinin açıqlamasını "Şərq"ə şərh edən politoloq Fuad Abbasov bildirib ki, Ermənistanla sülh sazişini vasitəçisiz, birbaşa imzalamaq lazımdır:** "Rusiya XİN sözçüsü M.Zaxarovanın dedikləri rəhbərliyin - Sergey Lavrovun, Müdafiə naziri Sergey Şoyqunun eləcə də, prezident Vladimir Putinin aldığı qərarların nəticəsidir. KTMT bir neçə ölkədən ibarətdir. Orda Rusiya ilə yanaşı, Qazaxıstan, Belarus hərbçiləri də ola bilər. Lakin rəsmi Moskvanın təklifi olduğunu bildiyimizə görə, Rusiyadan göndərilən hərbçilərin Azərbaycan-Ermənistan sərhədində xidmət göstərməsi nəzərdə tutulur. Ermənistanın bölgəyə müşahidəçi missiyası adı ilə gətirdiyi Qərbi avropalı hərbçiləri alternativ kimi nəzərdən keçirmək mümkündür. Azərbaycan tərəfinin buna razılıq verməsi, yaxud göz yumması müzakirə mövzusudur".

**Aygün Tahir**

# "Halal"lıqdan əsər-əlamət yoxdur

## Üstünə mal əti yazılıb, amma toyuq, donuz əti vurulur

**Ölkə ərazisində fəaliyyət göstərən ticarət şəbəkələrindən kolbasa və sosiska məhsullarından nümunələr götürülərək, müayinə üçün Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub. AQTA 10 fevral 2023-cü ildə bununla bağlı araşdırma aparıb. Dünən isə AQTA kolbasa və sosiska məhsullarında aparılan yoxlamaların nəticəsini açıqlayıb.**

Məlum olub ki, cari dövr ərzində 57-si kolbasa, 32-si sosiska olmaqla, ümumilikdə 89 adda məhsuldan nümunə götürülüb. Nümunələrin sınaq nəticəsinə əsasən, 80 məhsuldan götürülən nümunə normativ sənədlərin tələblərinə cavab verib. 6 istehsalçıya məxsus 9 məhsulda (6-sı kolbasa, 3-ü sosiska) uyğunsuzluqlar müəyyən edilib ki, bunlardan 4 məhsulda (3-ü kolbasa, 1-i sosiska) uyğunsuzluq təhlükəsizlik göstəriciləri ilə, 5-də isə (3-ü kolbasa, 2-si sosiska) etiket məlumatları ilə bağlıdır. Nəzarət tədbirləri zamanı həmçinin, "Halal" adı ilə satışa çıxarılan kolbasa və sosiska məhsullarının analizi nəticəsində həmin məhsulların tərkibində donuz əti aşkarlanmayıb. Azərbaycanda "Kəndli" brendi ilə kolbasalar istehsal edən "Rəhimovların Ailə Təsərrüfatı"nın "Kəndli" brendi ilə istehsal etdiyi kolbasalarda üzərində donuz əti bəyan edilmədiyi halda, tərkibində donuz DNT-si aşkarlanıb.

"Səhiyyəli", "Köhnə dad" brendi ilə istehsal edilən yarım hisə verilmiş "Servalat" kolbasalarının üzərində isə mal əti bəyan edilsə də, tərkibində toyuq DNT-si aşkarlanıb. Agentlik tərəfindən məhsullarının təhlükəsizlik göstəriciləri ilə bağlı uyğunsuzluq aşkarlanan istehsalçı müəssisələrdə qanunvericiliyə uyğun yoxlamalar həyata keçirilir, həmin məhsulların satış şəbəkələrindən geri çağırılması, məhdudiyyətlərin tətbiqi, inzibati məsuliyyət və digər tədbirlər görülür.



*Bazarlardakı kolbasa və sosiska məhsullarının mənşəyi bəlli deyil*

**Qida üzrə baş mütəxəssis Ağa Salamov "Şərq"ə açıqlamasına görə, satışda olan kolbasaların əksəriyyətinin tərkibi mənşəyi bəlli olmayan ət məhsullarından hazırlanır:** "Siyahıdan da göründüyü kimi, tərkibində mal əti yazılıb toyuq, donuz əti aşkarlanan kolbasa və sosiskalar var. Kolbasa və sosiskaların üzərinə "halal" yazıb, tərkibinə donuz əti vurmaq, "mal əti" yazıb, toyuq əti vurmaq yolverilməzdir. Bu cür oyunlarla əhalini aldadan işbazların sahibkarlıq statusu alınmalı və istehsal etdikləri məhsulun satışına qadağa qoyulmalıdır. Əks halda bu cür saxtakarlıqların təkrarlanacağı istisna deyil. İnsanlara leş yedizdirən adam heç bir töhmət və tənbehdən dərs çıxarası deyil. Mütləq şəkildə ciddi cəza almalı və bir daha sahibkarlıq fəaliyyəti ilə məşğul olmamalıdır".

**Ekspertin sözlərinə görə, mal ətindən hazırlanan kolbasa və sosiskaların tərkibinə oksidləşməyə qarşı kimyəvi maddə qatılır ki, o da insan orqanizmi üçün kifayət qədər təhlükəlidir. Ona görə də vətəndaşlara tövsiyəm mənşəyi məlum olmayan bu cür məhsullardan qəti imtina etməkdir:** "Çox güman ki, uyğunsuzluq aşkarlanan məhsulların tərkibində ekoli bakteriyası da aşkarlanıb. Saxlanma şəraiti düzgün olmayan ət məhsullarında olan ekoli bakteriyası mikrobioloji çirklənmə nəticəsində əmələ gəlir və qida zəhərlənmələrinə səbəb olur. Tərkibində mal ətinin olduğu qeyd olunan kolbasa və sosiskaların içində adətən dadlandırıcı və rəngləndiricilərdən istifadə olunur. Çox vaxt kolbasalarda ağciyərdən, toyuq dərisindən, ətin müxtəlif çıxıntılarından istifadə olunur ki, bu da kolbasanın maya dəyərinin aşağı düşməsinə səbəb olur.

İşbazların bu yolla insanları aldatmasının qarşısını aldığı üçün AQTA-ya təşəkkür edirəm. Nə yaxşı ki, onların bu oyunu çox uzanmadı".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”



# Mayda Laçın şəhərinə ilk köç olacaq

## Şəhər mərkəzində təxminən 600-ə yaxın evin bərpası ilə əlaqədar təmir işləri yekunlaşmaq üzrədir

**Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni idarəetmə üsulu həyata keçirir. Bu baxımdan mart ayının 28-də Prezident İlham Əliyevin Laçın rayonuna xüsusi nümayəndəni təyin etməsi də yeni idarəetmə üsulunun növbəti təzahürüdür. Laçın rayonunda həyata keçirilən bərpa-quruculuq layihələri haqqında ölkə başçısının xüsusi nümayəndəni qəbul edərkən söylədiyi fikirlər onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin güclü iqtisadi potensialı keçmiş məcburi köçkünlərin doğma yurdlarına qısa zamanda qayıtmalarını təmin edəcək. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq.**

Qeyd edək ki, dövlət başçısı İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən işğaldan azad edilən ərazilərimizdə tətbiq olunan yeni idarəetmə üsulunun nəticələrindən bəhs edərək bildirib ki, sahibinə qovuşan torpaqlarımızda yeni idarəetmə üsulu tətbiq edilir. ”Yəni bu, həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur. Əminəm ki, bu, təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir”.

Laçın şəhərinin abadlaşdırılmasından bəhs edən ölkə başçısı yaxın gələcəkdə sakinlərin öz yurdlarına qayıdacaqlarını, su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, yollar, Laçın şəhərinin bütün daxili yollarının yenidən qurulduğunu bildirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ermənilərin təbiətə vurduğu ziyana diqqəti yönəldərək xüsusi nümayəndə Məsim Məmmədova tapşırıq verərək qeyd etdi: ”Biz keçmiş köçkünləri qaytaracağıq, infrastruktur yaradacağıq və orada iş yerləri yaradılacaq, çox gözəl imkanlar yaradılacaq. Ancaq qayıdacaq hər bir keçmiş məcburi köçkün özü də bilməlidir, siz də mənim nümayəndəm kimi bilməlisiniz, biz ətraf mühiti qorumalıyıq”.

Laçın şəhərinə ilk köç bu ilin may ayında planlaşdırılır. Ötən ilin sentyabr ayında şəhərin Baş Planına uyğun olaraq yeni evlərin tikintisinə başlanılıb və aparılan işlərin böyük bir qismi artıq bitmək üzrədir. Hazırda Laçın şəhərinin ərazisində yeraltı kommunikasiya qovşaqlarının, magistral xətlərinin salınması işləri yekunlaşıb. Şəhərin mərkəzində bərpaya yararlı evlər təmir edilir, dam örtükləri təzələnir. Əlbəttə, yeni tikilən inzibati binaların hər biri müasir standartlara cavab verəcək.

**Laçından olan millət vəkili Mahir Abbaszadə ”Şərq”ə açıqlamasında deyib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə əldə etdikdən sonra qarşıda duran əsas məsələlərdən biri işğaldan azad edilən əraziləri bərpa etmək, dağılmış iqtisadiyyatı Azərbaycanın ümumi iqtisadiyyatına çevirməkdir.** Eyni zamanda bu ərazilərdən məcburi köçkün düşmüş insanları yenidən öz ata-baba yurdlarına qaytarmaq, xüsusilə də, daimi qaytarmaq kimi ciddi işlər də qarşıya qoyulan əsas məqsədlərdən biridir: ”Bu hədəfləri həyata keçirmək üçün Azərbaycanın dövlət büdcəsindən hər il kifayət qədər vəsait ayrılıb. Builki dövlət büdcəsində də məhz işğaldan azad edilmiş ərazilərə ”Böyük Qayıdış”ı təmin etməklə bağlı təxminən 3 milyard vəsait ayrılıb. Bundan əvvəlki illərdə də təxminən 4.2 milyard vəsaitin ayrılması bir daha göstərir ki, Azərbaycan dövləti işğaldan azad edilmiş əraziləri bərpa etmək, qurmaq və yaratmaqla bağlı ciddi işlər görməkdədir. Azərbaycan Prezidenti, cənab İlham Əliyevin göstərişlərinə və tapşırıqlarına uyğun olaraq 2022-26-cı illəri əhatə edən ”Böyük Qayıdış”ı təmin etməklə bağlı Dövlət Proqramı qəbul olunub. Həmin proqramın müxtəlif müddəalarında müxtəlif nazirliklərə konkret tapşırıqlar verilərək həm tapşırıqların yerinə yetirilməsi ilə bağlı maliyyə mənbələri göstərilib, həm də qarşıya qoyulan məqsədlərin, işlərin nə qədər vacib olduğu bir daha ortaya qoyulub”.

İşğaldan azad olunan və bərpa edilən rayonlar içərisində Laçının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayan millət vəkilinin sözlərinə görə, Laçın rayonu Qarabağda yaşayan ermənilərlə Ermənistan arasında olan sərhədə ən yaxın məsafədə yerləşir. 10 noyabr bəyanatının müddəalarına uyğun olaraq, Laçın rayonunun şəhər mərkəzindən, Zabux və Susdan keçməklə Qarabağda yaşayan ermənilərin Ermənistana gediş-gəlişlərini asanlaşdırmaq məqsədilə belə bir dəhliz verilib: ”Həm də bəyanatın müddəalarına uyğun olaraq, yeni yol çəkilib. Beləliklə, ötən il avqustun 26-da Laçının şəhər mərkəzi, Zabux və Sus kəndləri erməni işğalçılarından tamamilə azad olunub. Bundan sonra möhtərəm cənab Prezident, müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin Laçın şəhərinə səfəri oldu. Laçının şəhər mərkəzində bayrağımız qaldırılıb. Ölkə başçısı oradan həm Ermənistana, həm də xalqımıza öz mesajlarını verib. Eyni zamanda Laçın şəhərinin və azad edilmiş kəndlərin coğrafi nöqteyi-nəzərdən nə qədər vacib olduğu, tarixi nöqteyi-nəzərdən bu ərazilərin nə qədər azərbaycanlılara məxsus olması barədə öz fikirlərini bölüşüb. Rayonun bərpa olunması ilə bağlı müvafiq qurumlara dövlət başçımız öz tapşırıqlarını verib. Beləliklə, Laçın rayonunun şəhər mərkəzində, Zabux və Susda yeni qəsəbələrin tikintisi, bərpa oluna biləcək evlərin bərpa olunması ilə bağlı ciddi işlər görülür. Hazırda Laçının şəhər mərkəzində təxminən 600-ə yaxın evin bərpası ilə əlaqədar təmir işləri yekunlaşmaq üzrədir. Şəhərdə infrastrukturun qurulması, keçmişdə 2 nömrəli tam orta məktəb adlanan təhsil ocağının çox sürətlə təmir olunması xüsusi diqqət çəkir. Möhtərəm Prezidentin Zabuxda 223 ailədən ibarət yeni qəsəbənin tikintisi, eyni zamanda Susda yaşayış qəsəbəsinin tikintisi ilə əlaqədar konkret tapşırıqları var. Məndə olan məlumatlara görə, işlər çox sürətlə həyata keçirilir. Orada daha müasir qəsəbələrin tikintisi nəzərdə tutulur. İlin sonuna qədər Laçın rayonunun Güləbird, Şəlvə, Qorçu kəndlərinin baş planlarının hazırlanması nəzərdə tutulub. Bunlarla bağlı artıq Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən şirkətlər seçilib və o şirkətlərin səyləri nəticəsində biz baş müfəssəl planların hazırlanmasını gözləyirik. Digər tərəfdən, Laçın Hava Limanının tikilməsi də çox sürətlə davam etdirilir. Olduqca çətin bir relyefdə olmasına rəğmən dövlətimizin iqtisadi gücü sayəsində, ölkə başçısının siyasi iradəsi nəticəsində biz hava limanının tikintisinin sürətlə getdiyinin şahidi oluruq”.

### “Yurda qayıdacaq insanların təhlükəsizliyi ilə bağlı bütün zəruri addımlar atılır”

Laçınlı deputat 2025-ci ilin sonlarına qədər hava limanının istifadəyə veriləcəyini də açıqlayıb. Onun sözlərinə görə, bu da orada xidmət edən zabit və əsgərlərimizin ora gediş-gəlişlərinin asanlaşmasına səbəb olacaq: ”Kəlbəcər, Laçın və Şuşanın turizm imkanlarından istifadə etmək nöqteyi-nəzərindən hava limanının istifadəyə verilməsi o yerlərdə turizm imkanlarının artmasına öz müsbət təsirlərini göstərəcək. Bütövlükdə, siyasi və turizm nöqteyi-nəzərindən hava limanının ərsəyə çatması çox böyük bir hadisə olacaq. Eyni zamanda, köçürüləcək əhali ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində ciddi siyahıyaalınmalar həyata keçirilir. Xüsusilə köçürüləcək insanların peşə fəaliyyəti, ixtisasları, öz dədə-baba yurdlarına qayıdarkən hansı işləri davam etdirəcəkləri barədə ciddi araşdırmalar aparılır. Yeni iş yerlərinin açılması ilə bağlı da ciddi işlər görülməkdədir. Hesab edirəm ki, Ali Baş Komandanın rəhbərliyi ilə dövlətimizin iqtisadi gücü sayəsində cari ildə Laçının şəhər mərkəzinə və Zabuxa, Susa nəzərdə tutulan təxminən minə yaxın insanın köçürülməsi təmin ediləcək ki, bu da Azərbaycan tarixində çox mühüm bir hadisə olacaq. Çünki Laçın şəhəri uzun müddət Qarabağ ətrafında gedən müzakirələrdə, proseslərdə mübahisə predimeti olub. Laçına insanların qayıdışı, orada yaşayışın təmin olunması bir daha göstərəcək ki, bu torpaqların tarixi sahibləri məhz azərbaycanlılardır və bunlar da köçüb öz ata-baba yurdlarında daimi yaşayırlar”.

Təhlükəsizliklə bağlı narahatlıqlara gəldikdə isə millət vəkili qeyd edib ki, ərazi Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən yüksək səviyyədə qorunmaqdadır. Bu da təbii ki, köçürüləcək insanların təhlükəsi ilə bağlı olan narahatlıqları aradan qaldırır. Digər bir tərəfdən köçürüləcək insanlarla bağlı dövlət tərəfindən proqram qəbul edilib. Həmin proqrama əsasən iqtisadiyyatın müxtəlif sektorları Laçın rayonunda inkişaf etdiriləcək. Bununla bağlı artıq yeni, ilkin mərhələdə olan işlər görülüb. Yəni rayonda həm kənd təsərrüfatının, həm sənayenin, həm turizmin inkişafı, eyni zamanda, aqroparkların salınması ilə bağlı ciddi işlər görülür. Bütün bunlar isə buraya köçürüləcək insanların həm həyat şəraitini yaxşılaşdıracaq, məşğuliyyət problemini həll edəcək, həm də dayanıqlı və sosial müdafiəni təmin edəcək. Ölkə rəhbərinin qeyd etdiyi kimi, biz laçınlılar, ata-baba yurdlarımıza daimi qayıdacağıq” .

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Təhsil ekspertindən maraqlı təklif

## Hər bir şagirdin psixoloji pasportu hazırlanmalıdır

**”Hər bir şagirdin psixoloji pasportu hazırlanmalıdır. Bu pasport, onun sosial və psixoloji profilinin yaradılmasına kömək edən bir sənəddir. Bu sənəd şagirdin davranışının və mövqeyinin təhlil edilməsinə imkan verir və onun problemləri və potensialı haqqında məlumat toplamağa yarayır”. Bu sözləri təhsil eksperti Kamran Əsədov deyib.**

Onun sözlərinə görə, şagirdlərin psixoloji pasportunun hazırlanması üçün ilk olaraq şagirdlərin davranışının, valideynləri və sinif yoldaşları ilə münasibətlərini, məhsuldarlığını və sosial münasibətlərini qiymətləndirmək üçün müəllimlər, psixoloqlar və valideynlər tərəfindən müşahidələr aparılmalıdır. Bu müşahidələr zamanı şagirdin güclü və zəif tərəfləri dəqiq şəkildə müəyyənləşdirilməlidir: ”Sonra şagirdin mövqeyi və psixoloji profilinin yaradılması üçün bu məlumatlar əsasında bir psixoloji təhlil hazırlanmalıdır. Bu təhlil, şagirdin mövqeyi və təhsil vəzifələrinə necə cavab verdiyini dəqiqləşdirəcək, potensialını və problemlərini müəyyən edəcəkdir. Psixoloji pasportun hazırlanması zamanı, valideynlərin və digər mənbələrin müvafiq icazələri əldə edilməlidir. Əsas məqsəd şagirdin sosial və psixoloji profilinin yaradılmasıdır, bu sənəd şagirdin maraqları, istəkləri, inkişaf potensialı və problemləri haqqında ətraflı məlumat verməlidir. Psixoloji pasport, şagirdin təhsil və inkişafında köməkçi bir vasitə olaraq istifadə edilə bilər. Məsələn, bu sənəd şagirdin inkişafının monitorinqi üçün və problemlərin həllinə kömək üçün istifadə edilə bilər. Əgər hər bir şagirdin psixoloji pasportu olarsa, artıq onun atacağı addımları, sərgiləyəcəyi davranışları öncədən proqnozlaşdırmaq olar”.

**Şəymən**

# Bakıda orta məktəbdə kütləvi zəhərlənmə olub

## 6 nəfərdən birinin vəziyyəti ağır qiymətləndirilir

**Bakıda orta məktəbdə kütləvi zəhərlənmə qeydə alınıb. Məlumata görə, hadisə Parlament prospekti 7/11 ünvanında yerləşən A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseyində baş verib. Zəhərlənənlərin ibtidai sinif şagirdləri olduqları bildirilib.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədovun sözlərinə görə, məktəbdə 10-a yaxın şagird quş əti tərkibli qida qəbul edib: ”Onlar mədə ağrısı şikayətləri ilə müraciət ediblər. Təcili tibbi yardım briqadası çağırılıb və zərurət olan şagirdlər müayinə üçün xəstəxanaya aparılıblar. Onların vəziyyəti kafi, normal olaraq qiymətləndirilir.



### Pediatr: "Yuxarı sinif şagirdlərinin qidalanması açılası dərd deyil. Bütün günü repetitor yanına qaçan uşaqlar nə olsa yeyirlər"

Bu qidalar məktəb bufetinin müvafiq şirkət ilə razılaşması əsasında hazırlanır. Həmin şirkətə də bu barədə məlumat verilib. Aidiyyəti qurumlar da məsələni araşdırırlar. Müvafiq qurumlara məlumat verilib və aidiyyəti üzrə nəzarət ediləcək.

TƏBİB-in məlumatına görə, baş verən hadisə ilə əlaqədar qurumun tabeliyindəki Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət daxil olub. Qeyd olunub ki, təcili tibbi yardım briqadaları dərhal hadisə yerinə cəlb edilib: ”6 nəfər (4-ü qadın, 2-si kişi cinsi olmaqla) TƏBİB-in tabeliyindəki Kliniki Tibbi Mərkəzin nəzdində olan 2 saylı Kliniki Uşaq Xəstəxanasına yerləşdirilib. Onlardan 3 nəfər ambulator müalicə üçün evə buraxılıb. Hazırda 2 nəfərə (vəziyyətləri qənaətbəxş) tibb müəssisəsinin Təcili tibbi yardım şöbəsində, 1 nəfərə (vəziyyəti ağır qiymətləndirilir) Reanimasiya şöbəsində zəruri tibbi xidmətlər göstərilir”.

Baş Prokurorluğun Mətbuat xidmətindən isə bildirilib ki, Bakı şəhəri 20 nömrəli məktəb-liseydə şagirdlərin qidadan zəhərlənməsi faktı üzrə Yasamal rayon Prokurorluğunda araşdırma aparılır. Qeyd olunub ki, ilkin ehtimallara əsasən, şagirdlər quş əti tərkibli qidadan zəhərlənib. Zəhərlənmənin səbəbinin müəyyənləşdirilməsi məqsədilə təhsil müəssisəsinin bufetindən qida nümunələri götürülərək müvafiq ekspertizalar təyin edilib.

20 nömrəli məktəb-liseydə baş verən hadisənin səbəbləri, həmçinin qida zəhərlənməsi olub-olmaması ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri ilə müvafiq qurumların əməkdaşları tərəfindən araşdırmalara başlanılıb.

**Məktəblilərin qidalanma məsələsinin hər zaman problemli olduğunu vurğulayan pediatr Vaqif Qarayev isə ”Şərq”ə açıqlamasında deyib ki, az qala 10 anadan 9-u uşağının səhərlər yemək yeməməsindən şikayətlənir.** İkinci növbədə oxuyan şagirdlər isə gec yatıb, gec oyandığından səhər yeməyini saat 11-12-də yeyir. Günorta da evdən məktəbə ac gedən uşaq evə gələnə qədər ac qala bilməz axı. Məktəbin bufetindən nəsə alıb yeyir. Bu isə düzgün deyil. Səhər və ya günorta olmasından asılı olmayaraq evdən ac çıxan uşaqlar özləri ilə yemək götürsələr yaxşı olar. Bu dediklərim hələ aşağı sinif şagirdlərinə aiddir. Yuxarı sinif şagirdlərinin qidalanması isə açılası dərd deyil. Bütün günü repetitor yanına qaçan uşaqlar nə olsa yeyirlər. Məktəbli uşaqların sağlam qidalanmaması çox ciddi və müzakirə olunası mövzudur”.

Pediatrın sözlərinə görə, uşaqları yarımfabrikatlardan, quru qidalardan uzaq tutmaq lazımdır. Analar övladlarına fasilədə yeməleri üçün ev şəraitində buterbrodlar hazırlasa daha yaxşı olar”.

**Şəymən Bayramova**

# Yanğın təhlükəsizliyi hər yerdə qorunmalıdır

## Psixologiya mərkəzlərinin yoxlanması təqdir olunmalıdır




### Ciddi yoxlamalar aparılsa, paytaxtdakı iaşə obyektlərinin bəlkə də 90 faizində nöqsanlar, təhlükəli hallar aşkarlanar

**Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Salyan şəhəri, Ənnağı Hüseynov küçəsi, 32A ünvanında yerləşən "Narınc" Psixologiya Mərkəzində keçirilmiş yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, həmin nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib.**

Fövqəladə Hallar Nazirliyindən (FHN) verilən məlumata görə, obyektin istismarı Dövlət Yanğın Nəzarəti Xidməti ilə razılaşdırılmayıb.

Obyekt "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığorta olunmayıb.

Eyni zamanda obyekt avtomatik yanğınxəbərverici siqnalizasiya qurğuları, ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmayıb. Elektrik təchizatı və elektrik qurğuları "Elektrik Qurğularının Quraşdırılması Qaydaları"nın tələblərinə uyğun quraşdırılmayıb. Obyektdə təxliyə planı da mövcud olmayıb. Mətbəx otağının, sanitar qovşağının tavan sahələri yanar üzlük materialla üzlənib və pilləkən qəfəsi taxta konstruksiyadan inşa edilib. Daxili qaz boruları yivli birləşmələrlə istismar olunub. Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın qısa müddətdə genişlənərək faciəni qaçılmaz edəcək.

Qeyd olunanları nəzərə alaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin kobud pozulması faktları aşkar edilmiş Salyan şəhəri, Ə.Hüseynov küçəsi, 32A ünvanında yerləşən "Narınc" Psixologiya Mərkəzinin fəaliyyətinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib.

**Mövcud qərarı şərh edən Təhlükəsizlik eksperti Elmar Nurəliyev "Şərq"ə açıqlamasında yanğın təhlükəsizliyi qaydaları, yanğın təhlükəsizliyinin təşkili, yanğın təhlükəsizliyinə riayət olunma norma və standartlarının "Yanğın təhlükəsizliyi haqqında" qanunla tənzimlədiyini qeyd edib:** "Qanunda göstərilib ki bütün idarə və müəssisələr, dövlət və özəl təşkilatlar, yerli və xarici şirkətlər, obyektlərdə və iş yerlərində yanğın təhlükəsizliyi qaydalarına tam əməl olunmalıdır. Yanğın təhlükəsizliyinin təşkili deyəndə ilk növbədə iş yerlərində, idarələrdə yanğın təhlükəsizliyinə dair təlimatlar olur. Bu təlimatlarda yanğın baş verərkən davranış qaydaları, təxliyə planı, yanğın zamanı insanların və əmlakın mühafizəsi qaydaları göstərilir. Daha sonra iş yerlərində "yanğın qrupu" adlanan qruplar olmalıdır. Bu qruplar yanğın baş verəndə insanların təhlükəsiz təxliyə olunmasını, qiymətli kağızların, əmlakın çıxarılmasını və onların mühafizəsini təşkil edirlər. Bu qruplara mütəmadi təlimlər keçirilməli və onlar hər hansı fövqəladə vəziyyətə həm fiziki, həm də psixoloji hazır olmalıdırlar. İdarələrdə yanğından mühafizə üçün yanğın sensorları, yanğın hidrantları, yanğın şitləri tam komplekt - yanğınsöndürən balon, bel, balta, ling, qum, vedrə, yanğınsöndürən toplar ilə təmin edilməli, onların daima işlək və saz vəziyyətdə olmaları yoxlanılmalıdır. Bunlar yanğın baş verərsə, yanğının qarşısını almaq üçün vasitələrdir".

Bu cür qanunsuzluqlara sadəcə bu obyektdə yol verilmədiyini vurğulayan ekspert deyib ki, ölkədə fəaliyyət göstərən nəinki psixologiya mərkəzləri, o cümlədən tədris, tibb, ticarət mərkəzləri və ya digər obyektlərin heç birində yanğın təhlükəsizliyinin norma və qaydalarına əməl olunmur: "Halbuki, insanların kütləvi olduğu bu məkanlarda yanğın təhülkəsizliyinə çox ciddi əməl edilməlidir. Onlar mütləq şəkildə avtomatik yanğınxəbərverici siqnalizasiya qurğuları və ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmalıdır. Yanğın hadisəsi həm yüzlərlə insanın həyatını təhlükəyə atır, həm də əmlaka, orada çalışan sahibkarlara ciddi ziyan vurur. Yanğınlar zamanı havaya külli miqdarda zərərli maddələr atılır ki, bu da yaxınlıqda yaşayan insanların sağlamlığı üçün təhlükəlidir. Fövqəladə hadisələr içərisində ən çox rast gəlinən məhz yanğındır. Yanğın hadisəsi həm yüzlərlə insanın həyatını təhlükəyə atır, həm də orada çalışan kiçik sahibkarlara xeyli ziyan vurur. Bütün iaşə obyektləri zəruri olan yanğın təhlükəsizliyi norma və standartlarına riayət etməli, hətta orada çalışan insanların da yanğın təhlükəsizliyi qaydalarına əməl etmələrini tələb etməlidir. Sözügedən obyektdə təxliyə planının mövcud olmadığı deyilib. Bu necə mümkün ola bilər?! Bütün bunlar yanğından mühafizə üçün ən zəruri proseslərdir. Obyektlər layihələndirilərkən də buna xüsusi diqqət ayrılmalı, layihə sənədlərində yanğın təhlükəsinə qarşı hansı işlər görüldüyü göstərilməlidir. Obyektin əlavə təxliyə planı, təxliyə çıxışı olmalıdır. Orada işləyəcək insanların təhlükəsiz şəraitdə çalışmaları üçün şərait yaradılmalıdır. Hər bir obyektdə yanğınla mübarizə üçün xüsusi alətlər qoyulmalıdır, suyun daimiliyi təmin edilməlidir. Axı elə bir maddi vəsait də tələb etmir. Sadəcə, təşkilati işlər zəif aparılır, ciddi bir məsələyə səhlənkar yanaşılır. Ciddi yoxlamalar aparılsa, paytaxtdakı iaşə obyektlərinin bəlkə də 90 faizində nöqsanlar, təhlükəli hallar aşkarlanar. Hesab edirəm ki, paytaxt sakinləri də bu məsələlərdə aktiv olmalı, təhlükəli hallarla bağlı dövlət orqanlarını məlumatlandırmalıdır. Belə mərkəzlərə daha çox uşaqlar gedir. Qəfil bir yanğın olsa, onların təhlükəsizliyini kim təmin edəcək. Axı uşaqlar özlərini müdafiə imkanına sahib deyil".

**E.Nurəliyevin sözlərinə görə, heç bir obyekti yanğından yüz faiz sığortalamaq mümkün deyil:** "Bu təkcə bizdə yox, digər ölkələr üçün də aktual məsələdir. Ancaq məsələ odur ki, yanğın təhlükəsizliyinə riayət etməklə yanğını qısa zamanda söndürmək və minimum itkiylə xilas olmaq olar".

**Şəymən**



## Bəzi ixtisaslar gələcəkdə daha populyar olacaq

### İlk növbədə yüksək texnologiyalar sahəsini göstərmək olar

**XXI əsr bütün sahələrdə texnoloji inkişaf əsridir. Bu dövrün tələblərinə uyğun ixtisaslar seçilməsi, mütəxəssislər hazırlanması olduqca vacibdir.**

**Mövzu ilə bağlı "Şərq"ə danışan təhsil üzrə ekspert Kamran Əsədov deyib ki, bununla bağlı konkret proqnoz vermək mümkün deyil.**

Onun sözlərinə görə, gələcək üçün perspektivli hesab olunan ixtisaslar yeni ixtisas sahələrinə olan tələbatın artması və ya azalması ilə əlaqədar dəyişə bilər. Lakin bir neçə ixtisas sahəsinin gələcəkdə daha da önəmli və populyar olmaq ehtimalı yüksəkdir: "Buna misal olaraq, ilk növbədə yüksək texnologiyalar sahəsini göstərmək olar. Hər gün yeni və daha təkmilləşmiş texnologiyalar yaradılır və bu sahədə işləmək üçün ciddi tələbat var. Məsələn, sibernetika, süni intellekt, maşın mühəndisliyi, blokçeyn, İoT (İnternetə bağlı əşyalar) və kiber təhlükəsizlik xüsusi maraq doğurur. İkinci yerdə tətbiqi tədqiqat və inkişaf gəlir. Tədqiqat və inkişaf sahəsi, müxtəlif sektorlarda yeniliklərə imza atmaq üçün daimi tələb görür. Bu sahəyə misal olaraq, biotexnologiya, nanotexnologiya, materiallar üzrə tədqiqat, enerji, hərbi texnologiyalar, mühəndislik kimi ixtisasları göstərmək olar. Gələcəkdə qeyd olunan sahələrə daha çox ehtiyac duyulacaq.

3-cü perspektivli ixtisas sahəsi isə məhz mühəndislikdir. Mühəndislik, inkişaf edən dünyada daim əhəmiyyətli bir ixtisas olacaq. Mühəndislik sahəsindəki yenilikçi ideyalar, yeni layihələr, inkişaf etmiş texnologiyalar, enerji sahəsinin inkişafı kimi müxtəlif səbəblər, bu ixtisasa olan tələbi artıracaq. 4-cü yerdə isə sağlamlıq məsələsi yer alacaq. Sağlamlıq sahəsi gələcəkdə daha da təkmilləşdiriləcək. Nə qədər texnologiyalar inkişaf etsə də, tibb ixtisaslarına ehtiyac daima aktual olacaq".

**Aygün Tahir**

**Elanlar**

Rəhimov Ramil Toğrul oğluna məxsus Daxili İşlər Nazirliyi tərəfindən verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məhəmmədli Telman Ramiz oğluna məxsus Zabitin şəxsi vəsiqəsi MN 0056219 itdiyi üçün etibarsız sayılır.

## Tanınmış klarnet ifaçısı xərçəngə tutuldu




**Türkiyənin tanınmış klarnet ifaçısı Hüsnü Şenlendirici xərçəngə tutulub.**

"Şərq" xəbər verir ki, sənətçi ötən günlərdə bu səbəblə əməliyyat olunub. Məlumata görə, Şenlendiricinin bağırsağından 11 santimetr kəsilib. Musiqiçinin səhhəti hazırda yaxşıdır.

**Samirə**

## "Oxumağımı təkrarlaya bilməz"

### Mətanət Xatuna cavab verib



**Müğənni Mətanət Əsədova həmkarları Xatun Əliyeva və Vasif Məhərrəmlinin efirdə onu ələ salmasına münasibət bildirib.**

Bu barədə ifaçı "Şərq"ə danışıb. Əsədova söyləyib ki, onun dediyi hər söz trendə çevrilir: "O mənim şəxsi həyatıma aiddir. Bu barədə danışmıram. Həmin söz kənarda dursun. Mənim hər kəlməm trenddir. Oxuduğum kimi, danışığım da dillər əzbəri olub. Bilirlər ki, düz danışmışam, haqqı demişəm, necə var, eləyəm. Kamera görüb dəyişənlərdən deyiləm. Oxumağımı təkrarlamaq olmaz, danışığımı təkrarlasınlar. Sənət yoldaşlarımdır, etsinlər".

*Qeyd edək ki, Xatunla Vasif "7 Canlı" verilişində qonaq olarkən Əsədovanın Zaur Kamalla məşhur söhbətini təkrarlayıb. Onlar "Subay deyiləm. Neçə aydır məndən xəbərin yoxdur" sözləri ilə trendə çevrilən dialoqu parodiya edib.*

**Samirə Ərəblinskaya**

## Qocalar ağını çıxarıblar

### Qafarzadə hiddətləndi



**Müğənni Nadir Qafarzadə tənqidi status paylaşıb.**

"Şərq" xəbər verir ki, Elgiz Əkbərin verilişində 64 yaşında hamilə olduğunu deyən Həqiqət adlı xanım Qafarzadəni qəzəbləndirib. O həmin qadının videosunu paylaşaraq kəskin şəkildə fikirlərini yazıb: "Salam! Deyəsən çox qabağa getmisiniz, geridə qalmışam! Sahibsizlik! Cavanları heç qınamıram, qocalar daha çox ağını çıxarıblar! Allah, köməyimiz olsun! Uşaqlarıma demişəm, qocalanda telefonumu əlimdən alsınlar. Allah, ağlımı alınca, canımı al! Dedim ki, mən geridə qalmışam, siz çox öndəsiniz. 63 yaşında nə ana? Bu qadının tayları nəvə yox, nəticə oynadırlar. Bir az geriyə SSRİ vaxtına baxın görün, necə qadınlarımız var idi".

**Samirə**

## İKT sahəsində dələduzluq rəngini dəyişib!

### Qurbanlar adətən ya yaşlı insanlar, ya evdar xanımlar, ya da sözügedən sahədə təcrübəsi az olan müxtəlif sahələrdə çalışanlar olur



**"İKT sahəsində dələduzluq faktları son 10 ildə rəngini dəyişməyə başlayıb". Bunu "Şərq"ə media eksperti Səbuhi Abbasov bank hesablarından pul oğurlayan dələduzların peyda olmasından danışarkən deyib.**

Onun sözlərinə görə, əvvəllər insanlar ümumiyyətlə, sosial şəbəkədə qeydiyyatdan keçərkən və ya ünsiyyət zamanı öz bank hesablarının rekvizitlərini tam açıq şəkildə, parolla birlikdə sosial hesablarında dərc edirdilər: "Bu da sonrakı problemlərin yaranmasına gətirib çıxarırdı. Artıq böyük əksəriyyət kibercinayətləri bildiyinə görə, həmin işlə məşğul olan insanlar da xüsusi taktikalara keçməyə başlayırlar. Bu taktikalarda da bir nömrəli qurban adətən, ya yaşlı insanlar, ya evdar xanımlar, ya da sözügedən sahədə təcrübəsi az olan müxtəlif sahələrdə çalışanlardır. Birmənalı şəkildə onlara verilən vədlərə inanırlar. Nəticədə öz bank hesablarını göndərirlər. Məsələnin ikinci bir təhlükəli hissəsi üzə çıxır. Müəyyən proseslər zamanı dönə-dönə məlumatlandırma aparılıb ki, istənilən mesaja cavab verməsinlər. Sosial şəbəkədə qeydiyyat zamanı bank rekvizitlərini tam olaraq, daxil etməsinlər. Tanımadıqları, bilmədikləri platformalarda ödənişlər olunmasın".

**Mütəxəssis həmçinin diqqətə çatdırıb ki, kibercinayətkarlar artıq xüsusən də, sosial vəziyyəti orta və aşağı olan insanları hədəfə alırlar:** "Onlara şirnikləndirici təkliflər göndərirlər. Bu təkliflər də faciələrə gətirib çıxarır. İlk növbədə, bank təhlükəsizliyi ilə bağlı tədbirlər iki yox, üç-dörd pilləli rejimə keçməlidir. Yəni sadəcə əməkhaqqı, təqaüd kartlarının arxasındakı 3 rəqəmi öyrənmək pulları çəkməyə kifayət edir. Bu mənada ikihissəli proses başlamalıdır. Bundan başqa, maarifləndirmə aparılmalıdır.

Burada aidiyyəti qurumlar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə medianın (xüsusən də, televiziyalar) sıx əməkdaşlığı başlamalıdır. Türkiyə təcrübəsinə əsaslanaraq, insanların şüuruna təsir edəcək süjet xəttinə malik qısa videoçarxlar hazırlanmalıdır. İkinci mərhələdə yenə də maarifləndirmə işini davam etdirməliyik. Küçə bilbordları, saytlarda reklamlar və s. yerləşdirilməlidir. Müxtəlif informasiyalar verilməlidir. Verilişlər aparılmalıdır. Digər addım isə texniki təhlükəsizlikdir.

Ola bilər ki, insan kifayət qədər məlumatlıdır, maariflənib, amma texniki təhlükəsizlik bəsit şəkildə qorunursa, hesabı ələ keçirmək asanlaşır. Ən əsası hüquq mühafizə orqanlarına vaxtında müraciət edilməlidir. Vətəndaşlar bilməlidir ki, Azərbaycan qeydiyyatı olmayan mobil nömrələrdən gələn zənglər, mesajlar (daha çox WhatsApp) heç bir halda rəsmi ola bilməz. Anlaşılmayan, başqa ölkə koduna aid nömrələri dərhal əngəlləmək lazımdır".

*Qeyd edək ki, Azərbaycanda vətəndaşların bank hesablarından pul oğurlayan dələduzlar peyda olub. Vətəndaşlar hansısa məhsulu onlayn satışa qoyduğu zaman onlara müştəri qismində əcnəbi nömrədən zəng gəlir. Daha sonra dələduz vətəndaşdan kartla bağlı şəxsi məlumatları istəyir və ya telefonuna gələn kodu soruşur.*

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 851



## Bakıda 50 minə kəmər satılır

### Əşyanın 100 ildən çox yaşı var

**Elan saytlarının birində 50 minə kəmər satılır.**

Referans.az xəbər verir ki, 100 ildən çox yaşı olduğu vurğulanan bu kəmər, gümüş və təmiz dəri üzərində işlənilib.

Kəmərin qiymətinin bu qədər baha olmasının səbəbi dünyada həmin kəmərdən cəmi 9 ədəd olmasıdır.

*Satıcı bildirir ki, muzeylər o qiymətə əşya almadıqları üçün eksponat kimi muzeyə vermək istəmir. Real alıcı olduğu təqdirdə, əşyaya endirim ola bilər.*

## “Mən qaranlıq dünyaya könül gözüylə baxdım..."

### Aşıq Veysəlin ailə albomu nümayiş olunacaq



**Türk dünyasının məşhur ozanı, sazı və sözüylə könül dünyasından insanlığa səslənən Aşıq Veysəlin vəfatının 50-ci ildönümü qeyd ediləcək.**

Bu münasibətlə İstanbulda sərginin açılması planlaşdırılır. ”NTV,com.tr” xəbər verir ki, Atatürk Kültür Mərkəzində təşkil ediləcək sərgidə Aşıq Veysələ aid ailə albomundan fotolar, həmçinin xalq aşığının üz cizgilərini əks etdirən maska da nümayiş olunacaq. 2023-cü il UNESCO tərəfindən ”Aşıq Veysəl ili” elan edilib. ”Aşıq Veysəl İli” çərçivəsində Türkiyə Mədəniyyət və Turizm Nazirliyi bir sıra tədbirlər keçirməyi planlaşdırır. ”Veysəl gedər, adı qalır” adlı sərgi də bunlardan biridir. Sərgilənəcək fotolarsa Aşıq Veysəlin ailə üzvlərindən Nazəndər Süzər Gökçə ilə Gürsəl Gökçənin ailə albomundandır. Sərgidə Aşıq Veysəlin həyatına işıq salan müsahibələr, haqqında yazılan məqalələr, hazırlanan reportajlar da təqdim ediləcək. Qeyd edilir ki, sərgidə görmə əngəllilər üçün Brail əlifbasıyla nəşr edilmiş 4 cildlik ”Mətbuatda Aşıq Veysəl” adlı kitab da nümayiş olunacaq, teatr aktyorlarının ifasında kitabdan müəyyən hissələr səsləndiriləcək. Anadolunun həyat tərzi və Aşıq Veysəlin də yer aldığı ”Qaranlıq dünya” filmi ilk dəfə sərgidə təqdim ediləcək. Film 1952-ci ildə Bədri Rəhmi Eyuboğlunun senarisi əsasında rejissor Metin Erksan tərəfindən lentə alınıb. Sərgi İstanbuldan sonra Ankara və İzmirdə də nümayiş olunacaq.

**Məlahət**





# 157 il ömür yaşayıb

### Zaro Ağa həyatı boyunca 6 müharibə, 10 Osmanlı padşahı, 28 sədr-əzəm və 1 cümhurbaşqanı görüb





**157 illik ömür yaşadığı iddia edilən bitlisli Zaro Ağanın neçə yaşında vəfat etdiyi hələ də mübahisəlidir. Yaş kağızına görə, Zaro Ağa 157 il yaşayıb. ”Şərq” ”Milliyet.com”a istinadən bildirir ki, İstanbul Eyup Sultan məzarlığında Zaro Ağaya aid məzarın baş daşında ”Bitlisli Şəmsi Ağa oğlu 160 yaşında ölən Zaro Ağanın ruhuna Fatihə” yazılıb.**

Lakin Amerika tədqiqatçısı, gerontolog Valter Boverman 1939-cu ildə yayınladığı bir araşdırma sənədində Zaro Ağanın vəfat edən zaman 157 deyil, 97 yaşında olduğu qeyd edilir. Zaro Ağa həqiqətən neçə il və necə yaşayıb? Deyilənə görə, Zaro Ağa uzun ömür sürmək üçün xüsusi bir yol, üsula əl atmayıb. Sadəcə həyatını, bildiyi kimi yaşayıb. Amma adı dünyada məşhurlaşıb. Xarici mətbuat da onun haqqında yazıb. Zaro Ağanın 1774-1777-ci illər arasında Bitlisin Mutki bölgəsi, Meydan kəndində dünyaya gəldiyi iddia olunur. Yəni 18-ci əsrdə dünyaya gəlib, 20-ci əsrdə dünyadan köçüb. Həyatı boyunca 6 müharibə, 10 Osmanlı padşahı, 28 sədr-əzəm və 1 cümhurbaşqanı - Mustafa Kamal Atatürkü görmüş Zaro Ağanın böyük nüfuz sahibi olduğu, ağsaqqal hesab edilərək məsləhət, məşvərət üçün ondan məsləhət alındığı, mübahisələri həll etdiyi deyilir. Zaro Ağa 18 yaşında İstanbula köçüb. 1853-cü ildə Ortakköy Camenin inşaatında çalışıb. Harda çörəkpulu varsa, orda işləyib. 1800-cü illərin başlanğıcında Nizami-Cədid əsgərləri üçün inşa edilən düşərgənin tikintisində də çalışıb. 23 yaşında Akkada Cezzət Əhməd Paşanın komandanlığı altında Napolyona qarşı da döyüşüb. Yeniçərilər üsyanının yatırılmasından sonra məhz yeniçərilərin xatirəsinə inşa edilən Nüsrətiyyə Camesinin tikintisində də işləyib. Yeri gələndə hamballıq da edən Zaro kahya mərtəbəsinədək yüksələ bilib. Zaro Ağa Osmanlının çöküşünü də, Cümhuriyyətin qurulmasını da, İstanbulun işğalını da gördü. Qurtuluş Savaşından sonra zəfər günü üçün kəsilən qurbanlıqlarının bıçağı Zaro Ağanın əlində oldu. Atatürkün əmriylə Zaro Ağaya 100 lirə müavinət də təyin edilib. Ömrü uzun olsa da, sağlığında heç bir problem yaranmayan Zaro Ağa bu mənada da diqqətləri üzərinə çəkib. Xarici mətbuat, ”New-York Times” onunla bağlı reportaj hazırlayıb. Həyat sirlərini öyrənməyə çalışan tədqiqatçılar Zaro Ağanı reklam simasına çevirir, müxtəlif tədbirlərə dəvət edirdi, o da bu fürsətdən yararlanıb ticarətini genişləndirirdi. Nəhayət, Zaro Ağanın uzun və sağlam ömür sürməsinin səbəbi kimi fındıq göstərildi. Xarici ölkələrə də dəvət edilən Zaro Ağa müsahibələrində təbii qidalara üstünlük verdiyini deyirdi. Hətta reklam kampaniyalarının birində ”Zaro Ağa kimi türk üzümü və fındığı, zeytun yağı və İzmir ənciri yeyənlər onun kimi sağlam və uzunömürlü olacaq” şüarı da yazılıbmış. Qəzetçilərin ”elə sağlam həyat sürməyi necə bacarırsınız” sualına Zaro Ağanın cavabı isə ”bol-bol qatıq yeyirəm” olmuşdu. Zaro Ağa 11 dəfə evlənib, 13 övladı olub. İstanbulun Topxana səmtində kiçik bir evdə yaşayıb, 1934-cü ildə vəfat edib. Vəfatından sonra aparılan tibbi ekspertizada Zaro Ağanın vərəm xəstəliyi, ürəkdə genişlənmə, beyin damar tıxanıqlığı və 3 böyrəyinin olduğu müəyyənləşib.

**Məlahət Rzayeva**

## Dönə-dönə oxuyun!

### Toyuğun bu hissələri xərçəng yaradır



**Çin alimləri broyler toyuqlarının müəyyən hissələrinin xərçəng yarada biləcəyi barədə elmi açıqlama verib.**

**”Medicina” xəbər verir ki, onlar toyuğun bəzi yerlərindən bişirilən bulyonların belə təhlükəli olduğunu deyib. Bu belə hissələrə pəncələr-ayaqlar, bağırsaqlar, boyun və büzdüm daxildir. Toyuğun ayaqları sağlamlığa mənfi təsir göstərən çoxlu miqdarda hormon ehtiva edən yüksək yağ konsentrasiyasına malikdir. Toksinlər boğazdakı limfa düyünlərində də toplanır. Eyni şey bağırsaqlara və içalata da aiddir, orda çoxlu zərərli bakteriya və toksinlər var.**

## Cütlük terapiyası alırlar

### Oğuzhanla Demet evliliklərini xilas etmək üçün bu qərara gəlib



**Məşhur cütlük Oğuzhan Koçla Demet Özdemir cütlük terapiyası almağa başlayıb.**

**Bakupost.az xəbər verir ki, onlar evliliklərini xilas etmək üçün bu qərara gəlib.**

**Münasibətlərinə davam etsələr də, problemlərini tam şəkildə həll edə bilmədikləri bildirilib.**

**Qeyd edək ki, Demet Özdemir mübahisədən sonra evi tərk edib.**

**İddialara görə, bir həftə sonra evinə qayıdan aktrisa, incikliyini tam şəkildə aradan qaldıra bilməyib.**

**Xatırladaq ki, cütlük daha öncə də ciddi münaqişə yaşayıb. Mübahisəyə səbəb Özdemirin ”Aşk taktkleri” filmindəki səhnələri olub.**

**Koç, filmin digər baş rol olan Şükrü Özyıldızı qısqanıb.**

**Lakin bir ay sonra aktrisanın könlünü alan Koç, ona evlənmə təklifi edib. Cütlük 2022-ci ilin avqust ayında həyatlarını birləşdirib.**

## Gülben Ergen xəstəxanaya yerləşdirildi



**Məşhur türkiyəli müğənni Gülbən Ərgən xəstəxanaya yerləşdirilib.**

**Axşam.az xəbər verir ki, bu barədə ifaçı sosial media hesabında paylaşım edib.**

**”Həftələrdir acını ən dərindən hiss edib, yaşayıb, qəbullanan və onunla mübarizə aparan ruhum sonda məni yıxmağı bacardı. Yaxşı ki, oldu, dayana bildim” deyə, yazan Gülbən xəstəliyinin nə olduğunu açıqlamayıb.**

**Müğənninin paylaşımında diqqət çəkən məqamlardan biri də xəstəxanada onu zıiyarətə gələnlər arasında oğulları - Atlas, Ares ve Güneylə yanaşı keçmiş həyat yoldaşı Mustafa Erdoğanın da olmasıdır.**



# Putin qorxur!

### Mühafizəçi Rusiya Prezidentinin sirrini açdı





**Rusiya Prezidenti Vladimir Putinin mühafizəçilərindən biri olmuş Qleb Karakulov Rusiya dövlət başçısının sirrini açıb. Q.Karakulov Putinin sui-qəsd təhlükəsi altında yaşadığını, hər kəsdən, hamıdan şübhələndiyini, bu qorxunun onu paranoikə çevirdiyini deyib. Q.Karakulovun sözlərinə görə, bu qorxuyla da Putin ölkənin müxtəlif bölgələrində özü üçün evlər tikdirib və özəl dəmiryolu xəttiylə hər dəfə bir evə gedib-gəlir.**

”Şərq” ”Milliyyet.com.tr”yə istinadən bildirir ki, Q.Karakulov ”Putin özünə aid bir aləmin içindədir və reallıq hissini tamamən itirib”, söyləyib. Q.Karakulov ötən il Rusiyanı tərk edib, əslində, ölkədən qaçıb. Ölkə xaricində yaşayan Q.Karakulov Putinlə bağlı bəzi sirləri faş edərək deyib ki, hakimiyyət tərəfindən görülən bütün tədbirlər dövlət başçısının yerini gizlətmək məqsədi daşıyır. Özəl dəmir yolu da bu məqsədlə inşa edilib. Bundan əvvəl ”Proyekt” araşdırma mərkəzi Putinin Moskvanın Novo-Oqoryov bölgəsində və Qara dəniz sahilindəki Soçi şəhərində ”Bocharov Ruchei” malikanəsinə dəmir yolu xətləri çəkildiyini xəbər verib. ”The Guardian”a danışan Q.Karakulov ”Putin dünyadan təcrid edilmiş vəziyyətdədir. Son illərdə həyatı əslində sığınacaq olan şəxsi malikanələrində keçir. Putin təhlükəsizliyinə əmin deyil, həyatı üçün qorxur. Yaxın ətrafı isə ona prezident deyil, ”patron” deyə müraciət edir.

**Məlahət**

## Stresslə mübarizə aparmağın 5 yolu



**Gündəlik həyatımızda bəzən dözümlülük sərhədlərimizin aşıldığı anlarla qarşılaşırıq. Bəziləri qəzəbini bu anlarda ətrafdakılara əks etdirir.**

Bəziləri isə özlərinə qapılıb qısamüddətli depressiyalar yaşayırlar. ”Şərq” xarici mediaya istinadən xəbər verir ki, bu cür halların qarşısını almaq üçün müraciət edə biləcəyiniz üsullar var...

Xəyallarınızı və etmək istədiyinizi təxirə salmayın. Fikirlərinizə etibar edin və onları həyata keçirmək üçün səy göstərin.

Sizə xeyir verəcək bir ritual tapmaq, stresli anlarınızı problemsiz keçməyinizə kömək edəcək. Məsələn, uzun gəzinti, təmizlik və ya özünüzə qulluq etmək diqqətinizi stressdən yayındırmağa kömək edə bilər. Yaşlı və ya kiçik olmasından asılı olmayaraq ailə üzvlərinizə sizinlə birlikdə olmaq şansı verin. Onların hər şəraitdə yanınızda olduğunu bilmək və təcrübələrindən faydalanmaq sizi rahat edəcək. Stresli hiss etdiyiniz zaman dostlarınızla ünsiyyət qurmaq, özünüzü təhlükəsiz və boşalmış hiss edəcəksiniz. Uzunmüddətli planlar qurmaq stress səviyyənizi azaltmağa kömək edəcək. Çünki belə planlar motivasiyanızı yüksək tutmağa xidmət edir. Buna görə də, bəlkə gələn həftə konsertə bilet almaq və ya bundan üç ay sonra musiqili filmə keçmək sizi həyəcanlandıra bilər.

**Turan**

## Dünyada ilk dəfə

### Sürücüsüz avtobuslar xəttə buraxılacaq




**Gələn ay Şotlandiya ictimai nəqliyyatda mühüm yeniliyə imza atacaq. Reuters agentliyi xəbər verir ki, bu ölkədə tam ölçülü, özünü idarə edən sürücüsüz avtobuslar xəttə buraxılacaq.**

Mayın 15-dən etibarən Edinburq sakinlərinə xidmət göstərəcək bu nəqliyyat vasitələri ilkin mərhələdə 22 kilometr uzunluğunda Steygkoç-Forth Road Bridge marşrutu ilə hərəkət edəcək.

Beş ədəd birmərtəbəli avtonom avtobus həftədə təxminən 10 min sərnişin daşımaq qabiliyyətinə malik olacaq. Hazırda sürücüsüz avtobusların sınaq yürüşləri keçirilir. Onların idarəetmə panelində əvvəlcədən seçilmiş yollarda saatda 80 kilometr sürətlə hərəkət etməyə imkan verən sensorlar quraşdırılıb. Avtobuslarda texnologiyaya nəzarət edəcək təhlükəsizlik əməkdaşı oturacaq və sərnişinlərə minmək, bilet almaq və sorğularda kömək edəcək.

Böyük Britaniya hökuməti bildirib ki, sürücüsüz avtobuslar üzrə ”CAVForth” layihəsi dünyada ilk tam ölçülü, özü idarə olunan ictimai avtobus xidməti olacaq. Şotlandiya hökumətinin nəqliyyat naziri Kevin Stüart jurnalistlərə müsahibəsində deyib: ”Bu, bu innovativ və iddialı layihə üçün həyəcanverici bir mərhələdir və mən ”CAVForth” layihəsinin gələn ay istifadəyə verilməsini səbirsizliklə gözləyirəm. Bizim magistral yol şəbəkəmiz müxtəlif sınaq meydançası kimi geniş ərazini təmin edə bilər və qlobal əhəmiyyətli bu layihə həqiqətən Şotlandiyaya dünya səhnəsində öz nüfuzunu artırmağa kömək edəcək”.

Hazırda avtonom avtobuslar üçün parkın yaradılması işlərinə başlanılıb. Şotlandiya hökuməti ilin sonunadək bu nəqliyyat vasitələrinin sayını artırmağı nəzərdə tutur.